# Müəllim Çələbiyev Nuralı

**XII MÖVZU: Erkən uşaqlıq və məktəbəqədər yaşda psixi inkişafın xüsusiyyətləri**

**PLAN:**

1. Çağalıq dövründə uşağın psixoloji xüsusiyyətləri. Şərtsiz və şərti reflekslər, uşağın psixi inkişafında onların rolu.
2. Uşağın yaşlılarla ünsiyyəti. Nitqin mənimsənilməsinin ilkin şərtləri.
3. Körpəlik dövrünün psixoloji səciyyəsi.
4. Erkən uşaqlıq yaşının xarakteristikası. Uşağın psixi inkişafında 3 yaşın böhranı problemi.
5. Məktəbəqədər yaşda uşağın psixi inkişafının səciyyəsi. İdrak proseslərinin və uşağın şəxsiyyətinin inkişaf xüsusiyyətləri.

**Ədəbiyyat:**


1. Ə.Ə.Qədirov. Yaş psixologiyası. Bakı, 2003.
2. M.Ə.Həmzəyev. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı, 2000.
3. N.Z.Çələbiyev. Uşaq psixologiyası. Bakı, 2005.
4. Л.Ф.Обухова. Возрастная психология. Педагогическое общество Росси. М., 2003.
5. Педагогическая психология. (Под. ред. Н.В.Клюевой) М., Владос-пресс, 2005.
6. Р.С.Немов. Психология книга 2. М., Академия, 1999.
7. Ə.Ə.Qədirov., İ.N.Məmmədov. Yaş psixologiyası. Bakı., 1986.


Ailədə uşağın doğulması ata-ana və yaxın qohum-əqrəba üçün fərəhli bir hadisədir. Günlər, aylar keçdikcə uşaq yaşlıların əhatəsində, onların qayğı və nəvazişi sayəsində böyüyür və dəyişir: bu gün o dünənkinə bənzəmir, sabah isə artan imkanları sayəsində dünənkindən fərqlənəcək. Budur, o altı aylığında oturur, altı- yeddi aylığında iməkləməyə başlayır, təxminən bir yaşın sonunda dil açır və ilk titrək addımları ilə yeriməyə başlayır. Zaman keçdikcə uşağın artan fiziki imkanları öz təsirini psixi sferaya da göstərir. Uşaq orqanizminin təbii- fizioloji imkanları genişləndikcə o, müstəqil fəaliyyət subyektinə çevrilir, fərd, bioloji varlıq

səviyyəsindən yeni, daha yüksək sosial keyfiyyətlərə doğru inkişaf edir, sosiallaşır və şəxsiyyətə çevrilir.

Bətndaxili inkişaf dövrünü başa çatdıran körpə doğularaq real fərd olur. Doğulduğu ilk anlarda o, tamamilə iqtidarsız bir məxduq olmaqla heç nəyə qadir deyildir. Tədqiqatçıların fikrincə, körpəni dünyaya gətirən qadında doğuşdan sonna keçən ilk 24 saat ərzində «analıq instinkti» meydana gəlir və o, körpəni ilk dəfə olaraq özü də bilmədən sol qolu üstə götürür. Ona görə də, bu instinktin yaranması üçün doğuşdan sonra ötən ilk sutka xüsusi əhəmiyyətə malikdir.

Yeni doğulmuş uşağın dərisi doğulma anında piy yaxması ilə örtülü, rəngi açıq göyümtül, azacıq tüklə örtülü, bədəni bir qədər şişkin olur. Uşağın bədən əzələləri, xüsusilə ətraf əzələləri zəif inkişaf etmiş olduğundan doğulduğu ilk günlərdə uşaq ana bətnindəki vəziyyətini saxlayır. Yəni onun qolları dirsəklərindən bükülü və ayaqları qarnına sıxılmış olur. Yeni doğulmuş uşağın bədəninin bütün toxumaları zərif olur, hüceyrə elementlərinin və damarlarn zənginliyi nəzərə çarpır.

Uşaq doğulduqdan 2-4 gün sonra onun çəkisində fizioloji azalma halı baş verir. Bu dövrdə uşağın bədən çəkisində 150-350 qram həddində çəki itkisi baş verir. Müəyyən edilmişdir ki, ilk dəfə ana olan qadınların uşaqlarında çəkinin azalması halı daha çox müşahidə olunur. Lakin çox çəkmədən, təxminən 15 gün sonra uşaqların çəkicə azalması həddi aradan qalxır və onların doğulma anındakı çəkiləri bərpa olunur. Bir qədər sonra, yəni uşağın həyatının birinci ayı ərzində onların çəkiləri orta hesabla 800 qram, sonrakı hər bir ay ərzində isə, orta hesabla 50 qram az olmaqla artır. Beləliklə, 5 aylıqda uşağın çəkisi orta hesabla 6250-6500 qram, bir yaşın sonunda 9500-9800 qram həddinə çatır. Qeyd etmək lazımdır ki, körpələrin inkişaf tempində bir sıra fərdi fərqlər müşahidə olunduğu kimi, bu fərqlər eynilə onların çəki artımında da nəzərə çarpır. Bu fərqlər əsasən azalma istiqamətində müşahidə olunur və bu da bəzi körpələrin təbii ana südü ilə qidalanmaması ilə bağlıdır. Müəyyən edilmişdir ki, süni surətdə

yedizdirilən uşaqlarda çəki artımı tempi zəif olur. Burada vitamin çatışmazlığının, uşaqların bəsləmə şəraitinin, gigiyenik amillərin də təsiri vardır. İnkişaf etmiş müasir tibb elmi ananın körpəsini əmizdirməsini həm öz sağlığı, həm də uşağın sağlamlığı baxımından fövqəladə dərəcədə əhəmiyyətli olduğunu sübut etmişdir.

Yeni doğulmuş uşaqlarda təbii çəki artımı ilə yanaşı, böyümə, boy artımı da müşahidə olunur. Əgər yeni doğulma anında onların boyu orta hesabla 50 sm olursa, birinci üç ayda onların boyu 9 sm, ikinci üç ay ərzində 8 sm, sonrakı altı ay ərzində cəmi 3,5 sm artır. Beləliklə, südəmər dövrdə uşaqların boyu orta hesabla 23-25 sm artır və bir yaşın sonunda bu orta hesabla 73-75 sm-ə çatmış olur. Boy artımı göstəriciləri 5 yaşında 100 sm-ə, 14-15 yaşda 150 sm-ə çatır. Oğlanlarla qızların boy artımında müxtəlif yaşlarda bir-birini üstələmə halları baş verir.Qızların boy artımı, təxminən 18 yaşında başa çatdığı halda, oğlanlarda bu proses 20-25 yaşlarınadək uzanır. Müəyyən edilmişdir ki, qızlar 7 yaşadək olan dövrdə və 12-13 yaşlarında böyümə tempinə görə oğlanları geridə qoyurlar. Oğlanlar 7 yaşdan və 15 yaşdan sonra qızlardan daha sürətli bir tempdə boy atırlar. Uşaqlarda ən çox böyümə halları yay aylarına təsadüf edir. Avqust-dekabr aylarında boy atma tempi zəif baş verir. Böyümə surəti endogen (mərkəzi sinir sistemi, endokrin vəziləri) və ekzogen (mühit, şərait, qida və s.) amillərdən çox asılıdır. Həyatın ilk aylarında böyümə sinir sistemi, habelə timus vəzisi ilə, 3-4 aydan başlayaraq qalxanabənzər vəzi ilə tənzim olunur. Bir qədər sonra, uşağın həyatının 5-7-ci ilində hipofiz vəzisinin ön payının fəaliyyəti xeyli güclənir, cinsi yetişkənlik dövründə öz fəaliyyətinin yüksək həddinə çatmış olur.

Uşaqlarda dişlərin çıxma tempi düzgün inkişafın yaxşı göstəricisidir. Onların çoxunda dişlər 6-7 aydan çıxmağa başlayır. Əvvəlcə alt çənədə 2 kəsici diş, sonra üst çənədə 2 kəsici diş, bir qədər sonra yenə üst yan kəsicilər, ilin sonunda isə alt çənədə yan kəsici dişlər çıxmış olur. Beləliklə,

bir yaşın sonunda uşağın 8 dişi olur. Həyatın iknici ilində uşağın süd dişlərinin çıxması sürəti bir qədər də artır. 2 yaşın sonunda onların sayı 20-yə bərabər olur. Tibbi ədəbiyyatlarda daimi dişlərin çıxması əsasən dörd dövrə ayrılır:

1) İlk daimi dişlərin çıxması (5-7 yaşlar)
2) Süd dişlərinin daimi dişlərlə əvəz olunması (6-8 yaşlardan 13-14 yaşlaradək)
3) Üçüncü daimi dişlərin çıxması (12-14 yaşlar)
4) Ağıl dişlərinin çıxması (18-22 yaşlar)

Uşaqlarda dayaq hərəkət sisteminin inkişafı onların ümumi fiziki və somatik inkişafının başlıca göstəricilərindən biri hesab edilir. Dayaq-hərəkət aparatına somatik əzələ və skelet aiddir. Skelet bədənin ən möhkəm hissəsi olub, əzələlər, qarın boşluğunda və çanaqda yerləşən daxili orqanlar üçün dayaq, döş və baş beyin boşluqlarında yerləşən orqanlar üçün müdafiə və eləcə də orqanizmin yerdəyişməsini- hərəkətini həyata keçirir.

Yeni doğulmuş uşaqlar qaydasız, nizamsız və aralarında heç bir koordinasiya olmayan xaotik hərəkətlər edirlər. Bu hərəkətlər qeyri-ixtiyari olub, impulsiv xarakter daşıyır, periferik qıcıqlanma olmadan baş verir. Körpədə istər müəyyən vəziyyət almaq, istərsə də, bədənin vəziyyətini dəyişmək üzrə heç bir müəyyən edilmiş hərəkətlər olmur.

Uşaqlarda sinir sisteminin inkişaf xüsusiyyətlərinin öyrənilməsi uşaq psixologiyası elmi üçün əhəmiyyətli bir mövzudur. Beyin psixikanın maddi əsası olduğuna görə, uşaqlarda sinir-psixi fəaliyyətin inkişaf dinamikasını izləmək, onun xüsusiyyətlərini bilmək olduqca vacibdir.

Yeni doğulmuş uşaqların beyninin çəkisi təxminən 350-390 qram, altı ayda 632 qram, bir yaşında 925 qrama bərabər olur. Göründüyü kimi, bir yaşın sonunda uşaqların beyin çəkisi doğulma anı ilə müqayisədə 2,5 dəfə, üç yaşın sonunda 3 dəfə artır. Beş yaşında uşaqların orta beyin çəkisi 1138 qram, on yaşında 1362 qram, on beş yaşında isə 1460 qrama bərabər olur.

Qeyd etmək lazımdır ki, yeni doğulmuş uşağın beyin çəkisi onun ümumi çəkisinin təxminən 1/8 bərabər olduğu halda, yaşlı adamlarda bu nisbət 1/45 bərabərdir. Bu rəqəmlərdən göründüyü kimi, uşaq yaşının bütün dövrlərində beynin  çəki artımı dinamik şəkildə gedir və ilk gənclik dövrünün sonunda demək olar ki,   əsasən başa çatmış olur.

Yeni doğulmuş uşaqların beyin yarımkürələrinin qabığı yaşlı adamlarınkına nisbətən nazikdir. Qabıq təbəqələri kifayət qədər diferensiasiya olunmadığından qabıq mərkəzləri tam inkişaf etməmiş olur. Uşağın həyatının 7-8-ci aylarından başlayaraq sinir hüceyrələri diferensiasiyaya uğrayır, 5-6 yaşlarından sonra bu hüseyrələrin diferensiasiya tempi sürətlənir. Uşaqlarda baş beyinlə yanaşı onurğa beyin də müəyyən tempdə inkişaf etsə də, onun böyümə sürəti baş beyindən bir qədər geri qalır. Belə ki, onurğa beyin uşağın doğulduğu anla müqayisədə 5 yaşında öz çəkisini 3 dəfə  artırmış olur. Cinsi yetişkənlik dövründə bu çəki 4-5 dəfə artır.

Körpənin həyatının ilk 10-14-cü günləri ərzində anadangəlmə qida refleksləri əsasında ilk şərti reflekslər formalaşır. Bu prosesdə şərti qıcıqlandarıcılar  rolunda mürəkkəb taktil-proprioseptiv qacıqlandırıcılar çıxış edir: uşaqda əmmə hərəkətləri zamanı bu refleks müşahidə  olunur. Belə ki, körpəni əmmə vəziyyətdə qucaqda saxladıqda o, ağzı ilə ananın döşünü axtarır. Uşaq inkişaf etdikcə, böyüdükcə, hər cür qıcıqlandırıcılara qarşı beyin qabığının davamlığı yüksəlir, nəticədə o, uzun müddət oyaq vəziyyətində qalır ki, bu da şərti reflektor rabitələrin yaranmasına geniş imkan yaradır. Həyatın  3-cü ayından etibarən uşaqda görmə qıcıqlandırıcılarının təsiri altında **müsbət şərti reflekslər əmələ** gəlir.

5-ci aydan etibarən körpə bir çox səs qıcıqlandırıcılarının içərisindən yaxın adamların səsini fərqləndirməyə nail olur. Adamları belə tanımanın fizioloji mexanizmləri bir neçə dəfə təkrar nəticəsində şərti reflekslərin yaranması və möhkəmlənməsi ilə bağlıdır. Həyatın 5-ci ayından etibarən uşağın davranış və fəaliyyətində demək olar ki, bütün analizatorlar iştirak

edir. Şərti reflektor rabitələrin və onların möhkəmlənmiş sistemi olan **dinamik stereotipin** yaranması ilə bağlı olaraq uşağın beyninin funksional imkanları get-gedə genişlənir, beyin qabığının təhlil-tərkib fəaliyyəti artır. Həyatın 6-9-cu ayları ərzində uşaq sağ əlindən və şəhadət barmağından istifadə etməyə başlayır. Rəngləri ayırd etməyə, yad adamların danışığı və mimikasını başa düşməyə, qısamüddətli ayrılıqdan sonra tanış adamları tapmağa nail olur. 9-12-ci aylar ərzində uşaq müəyyən əşyaların adlarını öyrənir, bədən hissələrini tanıyır, mürəkkəb davranış formalarının ilk əlamətləri əmələ gəlir. 6 aylıqdan sonra uşaqda **birinci siqnal sisteminin** qıcıqlandırıcılarına reaksiya ilə yanaşı ikinci siqnal sisteminin qıcıqlandırıcıları olan **söz siqnallarına** qarşı da böyük miqdarda hərəkət reaksiyaları əmələ gəlir. 9-10 aylıqda uşaq «atan hardadır?» sözünə qarşı ataya tərəf dönməklə, «əl çal!» sözünə qarşı isə əl çalmaq reaksiyası göstərməyə cavab verir.

Fizioloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, uşaqlarda şərti danışıq refleksi səs aparatı əzələlərindən törəyən **kinestezik qıcıqlanmalar** əsasında inkişaf edir.

Bu qıcıqlanmalarda digər analizator sistemləri **görmə** (danışan adamın görünüşü), səs analizatorunu oyadan **səs kompleksi** və s. də iştirak edir. Bu sürətlə inkişaf edən böyük miqdarda şərti rabitələr (görmə hərəkəti, səs hərəkəti və s. onların bir-biri ilə və hərəki zona ilə rabitəsi) müəyyən bir sözlə əlaqədar olaraq söz siqnalının **«siqnallar siqnalı»**na-(İ.P.Pavlov)- ümumiləşdirici siqnala çevrilməsi üçün fizioloji şərtdir. Beləliklə, sözlər uşaq üçün zaman keçdikcə ətraf xarici aləmin cism və hadisələrinin xassələrini ümumiləşdirən faktlara çevrilir.

Uşağın **ali sinir fəaliyyətinin** inkişafı prosesində fizioloji amillərlə yanaşı ictimai amillər də mühüm rol oynayır. Ünsiyyət dairəsi kasıb olduqda, yaşıdları və yaşlılarla məhdud əlaqələrdə olduqda onun ali sinir fəaliyyəti, nitqinin inkişafı da normal göstəricilərdən geridə qalır. Müəyyən

edilmişdir ki, bir yaşın sonunda normal uşaqlar 10-15 sözü tələffüz edə bilirlər.

Həyatın birinci ilində uşaqlarda ali sinir fəaliyyətinin əsas xarakterik xüsusiyyəti sinir sistemi üzrə oyanma və ləngimə (tormozlanma) proseslərinin geniş surətdə yayılması meylidir: 4-6 yaşlarından etibarən uşaqların beyin qabığında **analitik sintetik** (təhlil-tərkib) fəaliyyətin əlamətləri xeyli güclənir. Bu dövrdə ətraf xarici aləm hadisələrinin təhlili və tərkibi prosesində tormozlanmanın rolu artır. Nəticədə bu proses uşağın beyin qabığının reaktiv hüceyrələrini hədsiz oyanma və yorulmaqdan qoruyur. Beyin fəaliyyətinin reflektor xüsusiyyətlərini bilmək, təlim və tərbiyə işində onları nəzərə almaq olduqca vacibdir. Bu uşağın həyatını düzgün təşkil etməyə, gigiyenik qaydalara əməl etməyə, qıcıqlandırıcıların təsirini nizama salmağa, ən başlıcası isə **uşaq nevrozlarının** yaranmasına səbəb ola biləcək əlverişsiz təsirlərdən qorunmağa kömək edir.

Siqaret və narkotik maddələr də ana bətnində körpənin normal fiziki və zehni inkişafına pozucu təsir göstərir. Bu zərərli vasitələrin davamlı qəbulu doğulan uşaqların normal inkişafına mane olur: onlar ağlağan və əsəbi olurlar.

Uşağın doğulması onun orqanizmi üçün böyük sarsıntı yaradan bir andır. O, vegetativ, bitki həyatına bənzər uyğunlaşdığı daimi mühitdən (ana bətnindən) doğulma nəticəsində tamamilə yeni bir mühitə- hava mühitinə düşür. Bu yolla dünyaya gəlmiş körpəyə ətraf xarici mühitdən saysız-hesabsız qıcıqlandırıcılar təsir göstərir. Bu mühit onun üçün uzunmüddətli həyatın başlanğıcı olub, körpənin bir subyekt kimi sosial münasibətlərə qoşulmasının əsasını qoyur, onun şəxsiyyətə çevrilməsini şərtləndirir.

Uşağın doğulma anını ilk böhran hesab edən Bolqar psixoloqu **L.Pernu** yazmışdır: «Çağanın böhranı doğulduğu çətin dəqiqələrdən başlanır. 20 kq-a bərabər itələyici təzyiqlə $37^0$C temperaturu olan isti su mühitindən o, hava mühitinə atılır. Bu çəkisizlik vəziyyətində və havanın

temperaturunun 20$^0$C olduğu kosmonavtın vəziyyətinə bənzəyir ki, o, belə şəraitdə tənəffüs etməlidir».

Yeni şəraitdə uşağın həyatı təbii, anadangəlmə reflekslər vasitəsilə tənzim olunur. O, müəyyən dərəcədə hazır sinir sistemi ilə doğulur ki, bu da onun xarici şəraitə uyğunlaşmasını təmin edir. Körpəni əhatə edən adamlar doğulduğu ilk anlardan etibarən onun qayğısını çəkirlər. Onlar uşağın orqanizminə fiziki qulluğu təmin edir, öyrədir, tərbiyə edir, insana məxsus psixoloji və sosial keyfiyyətlərə yiyələnməsinin subyekti rolunda çıxış edirlər. Uşağın yaşlılar tərəfindən ilk günlərdən başlanan himayəsi həyatın sonrakı mərhələlərində də davam edir, onun fiziki və sosial yetkinliyi dövründə, müstəqil həyat tərzinə başlamasınadək uzanır. Lakin həyatın sonrakı dövrlərində də valideynlər və digər yaşlılar tərəfindən yeniyetmə və gənclərə göstərilən maddi və mənəvi dəstək bu və ya digər formada davam edir. Həyatn qarşıya çıxardığı çətinliklərə davam gətirmək, bəzən sərt sınaqlara sinə gərmək məqamlarında, ailə uğursuzluqları, maddi və mənəvi böhranlar, ünsiyyətsizlik şəraiti hətta yaşlı adamların özlərində belə, güclü psixoloji sarsıntılar yaradır.

Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, körpə doğulduğundan 1-2 gün sonra kimyəvi keyfiyyətləri qidanın dadına görə fərqləndirə bilir. İybilmə duyğuları körpədə doğulduğu ilk gündən etibarən fəaliyyət göstərməyə başlayır. Uşaqlarda iybilmə duyğuları potensial olaraq mövcud olsa da, onlar yalnız 7-8 aylığına çatdıqdan sonra qoxunu nisbətən daha yaxşı fərqləndirirlər.**Görmə, eşitmə və hərəkət duyğularının** elementar formaları da ilk günlərdən fəaliyyətə başlayır. Fizioloqlar yeni doğulmuş körpənin ilk şərtsiz refleksləri sırasında onun orqanizminin əsas sistemlərinin (tənəffüs, qan dövranı) işini təmin edən bir sıra reflekslərin adlarını çəkirlər. Məsələn, iynə vurarkən körpədə dərinin sərtləşməsi, güclü işıq selinin təsiri ilə gözlərin yumulması kimi müdafiə refleksləri müşahidə olunur. Bunlarla belə, iki aya qədər uşaqlarda müşahidə olunan müdafiə refleksləri sırasında **qucaqlama refleksinin** adını çəkmək olar. Bu qorxu

zamanı ananı qucaqlama formasında təzahür edir. Həyatın ilk günlərində uşaqlarda Robinzon refleksi adlanan ovuciçi refleks də müşahidə olunur. Belə ki, uşağın ovucunun içinə hər hansı bir əşya toxunduqda uşaqda əşyanı tutmaq və möhkəm surətdə saxlamaq hissi əmələ gəlir. Bəzi psixoloqlar bunu yapışma və ya «meymun refleksi» də adlandırırlar. Uşaqlarda müşahidə olunan ilk şərtsiz reflekslərdən biri də **Babin refleksi** adlandırılan ayaqaltı refleksdir ki, bu, iki yaşadək bir müddət ərzində müşahidə olunur. Uşağın ayağının altını küt bir çöplə qıcıqlandırdıqda onun ayaq barmaqları aralanır.

Uşağın orqanizmi ilə ətraf xarici mühit arasındakı ən sadə qarşılıqlı təsir forması məhz anadangəlmə və ya ilk şərtsiz reflekslərdir. Bunlar mərkəzi sinir sisteminin (onurğa beyin və böyük yarımkürələrin qabıqaltı hissələri) ibtidai hissələrinin funksiyalarından ibarətdir. Məhz bu hissələr arasında daimi sinir rabitələri mövcud olur. Bu və ya digər qıcıqların müvafiq reseptorlara təsiri ilə körpədə əmmə, sıxma, itələmə və s. kimi reaksiyalar özünü biruzə verir. Körpəlik dövründə uşaqlarda müşahidə olunan ilk şərtsiz reflekslərdən biri kimi **bələdləşmə refleksinin** xüsusi əhəmiyyəti vardır. Bu refleks uşağın bütün psixi inkişafı prosesində özünün idraki məzmunu ilə fərqlənir. Onun ilkin və elementar forması uşağın nəzərlərinin əlvan, parlaq əşyalara doğru yönəlməsində ifadə olunur. Artıq bir yaşın sonunda bələdləşmə refleksi əllərin yoxlayıcı, sınaq xarakterli hərəkətləri ilə birləşir və tədqiqatçılıq xarakteri alır. Körpədə mənfi təsirlər yaradan daxili və xarici qıcıqlar ağlama reaksiyası ilə tamamlanmış olur. Körpəlik dövründə uşaqlarda fizioloqların **atavistik reflekslər** adlandırdıqları reflekslər də müşahidə olunur. Bu, əşyaları ağıza aparma formasında özünü göstərir.Bu, insana genetik olaraq öz canlı əcdadlarından keçən manipulyativ hərəkətləri xatırladır və keçici xarakter daşıyır. Bu refleks körpədə 6 aylıqda müşahidə olunur və 12 aylıqda demək olar ki, yoxa çıxır.

Uşaqda hərəki fəallığın (motorika) inkişafı körpəlik dövrünün sonunda **ayaq üstə yerimə,** məkanda addımlamaqla müstəqil yerdəyişmə formasında özünü göstərir. Körpəlik dövründə 5-6 aylıqdan başlayaraq uşaqlarda hərəki vərdişlər sürətli tempdə inkişaf edir. Əllərin və ayaqların sensor cəhətdən əlaqələnmiş hərəkətləri sonralar uşağın idrak və intellektual qabiliyyətlərinin formalaşmasında önəmli rol oynayır. Hərəki fəallıq zamanı əllərin və ayaqların hərəkətləri uşağa xarici aləm haqqında yeni informasiyalar əldə etmək, yerini sərbəst olaraq dəyişməklə yeni-yeni əşya və hadisələrlə tanış olmaq imkanı verir. Körpəlik dövründə əlin mürəkkəb hərəkətləri uşağın təfəkkürünün ilkin forması – **əyani-əməli təfəkkür** forması olaraq özünü göstərir. Körpənin əlinin böyük impulsiv aktivliyi onun həyatının ilk aylarından müşahidə olunur. Tutma, sıxma, əlləşdirmə kimi manipulyativ hərəkətlər artıq 3-4 aylıqda əli əşyalara tərəf uzatma, yapışma, dartma kimi hərəkətlərlə möhkəmlənmiş olur. 6 aylıqda o, yaşlıların köməyi ilə, 8 aylıqda isə sərbəst oturmaq imkanına sahib olur. 11 aylıqda uşaq sərbəst ayaq üstə durmağa, 12 aylıqda yaşlıların əlindən tutmaqla yeriməyə, 13 aylıqda isə sərbəst yeriməyə yiyələnmiş olur.

10 aylıqda uşaqlarda əllərin və gözün uzlaşdırılmış hərəkətlərini müşahidə etmək olar ki, buna da psixoloqlar **sensomotor koordinasiya** deyirlər. Uşaqların psixoloji müayinəsi (diaqnostikası) metodları vasitəsilə onların psixi sağlamlığının normativ göstəricilərini müəyyən etmək mümkündür.

Körpəlik dövründə hərəki sfera üzrə aparılan psixodioqnostika vasitəsilə müəyyən edilmişdir ki, körpə 12 həftəlikdə başın vəziyyətinə, 20 həftəlikdə əllərin, 40-cı həftəlikdə isə bədənin hərəkətlərinə nəzarət funksiyasına yiyələnmiş olur. 3 aylıqdan müşahidə olunan **diffsuz hərəki fəallıq** aylar keçdikcə lokalizasiya olunur, qeyd olunduğu kimi, 13 aylıqda müstəqil yerimə forması ilə başa çatır. Körpənin sensor fəaliyyəti 1 aylıqda ilk dəfə olaraq anaya zillənmiş baxışda təzahür edir. Ana körpənin üzünə

baxıb danışdıqca o, ağzını açıb-yumur. 1,5 aylıqda körpə hərəkət edən adamı izləyir. 3 aylıqda başını səs gələn tərəfə çevirir, öz əllərini müşahidə edir, hərəkət edən obyekti izləməyə başlayır. Bu ixtiyari hərəkətlərin ilkin təzahürü kimi qiymətləndirilir. 5 aylıqda körpə güzgüdəki əksinə baxıb gülümsəyir. 6 aylıqda yeni parlaq oyuncaqlara maraq göstərir, eşitdiyi səsləri təqlid etmək cəhdi göstərir. 8 aylıqda yad adamları doğmalarından fərqləndirir. Yarısı gizlədilmiş əşyaları tapır, ona göstərilən əşyanın yoxa çıxmasından təəccüblənməyə başlayır. 10 aylıqda uşağın sensor reaksiyaları xeyli mürəkkəbləşmiş olur. Belə ki, o, gözü qarşısında gizlədilmiş əşyanı tapmağa çalışır, 12 aylıqda isə şəxsi adı ilə çağırıldıqda dönüb baxır, səs tonunu fərqləndirir, kitablardakı şəkillərə maraq göstərir.

Körpəlik dövründə uşağın **diqqətinin** inkişafı anadangəlmə şərtsiz elementar reflekslərdən başlayır. Artıq 2 həftəliyində uşaq uca səslərə, parlaq əşyalara, bir qədər sonra isə, yəni 1,5 aylıqda hərəkət edən obyektlərə reaksiya göstərir. Lakin bu reaksiyalar olduqca davamsız olur: uşağın psixikasının məhdud imkanları onun diqqəti obyektində duran əşyalara psixi fəaliyyəti uzun müddət yönəltməyə imkan vermir. Bu dövrdə uşağın diqqəti qısa müddətli bələdləşmə refleksi səviyyəsində məhdudlaşıb qalır. Təxminən 6 aylığında uşağın psixi fəaliyyətində **diqqətin cəmləşməsi təşəbbüsləri** təzahür edir: o, əşyalara maraq göstərir, onları əlinə alır, sonra isə döşəməyə atır. Davamsız olan bu fəaliyyət uşağın digər obyektlərə maraq göstərməsi ilə nəticələnir. Həyatın ikinci ilində diqqətin mərkəzləşmə müddəti bir qədər artır ki, bu da oyun fəaliyyəti fonunda baş verir. Lakin kənar qıcıqlandırıcıların təsiri nəticəsində bu dövrdə də diqqət davamlı olur. Körpəlik dövrünün ikinci yarısında uşaqlarda yaşlıların hərəkətlərini təqlid etmə, psixoloqların **vikar öyrənmə** adlandırdıqları hərəkətləri diqqəti cəlb edir. Dünyaya yeni gəlmiş körpə öz həyatını ilk günlər şərtsiz reflektor xarakter daşıyan çığırtı ilə başlayır. Fizioloqlar uşağın ilk çığırtısının səs axınının spazması (sıxılması) kimi qiymətləndirirlər. Bu spazma **tənəffüs refleksləri** ilə müşayət olunur. Bir sıra alimlər belə

hesab edirlər ki, çığırtı **mənfi emosiyanın** ilk təzahürüdür. Körpədə müşahidə olunan ilk **müsbət emosiya** təbəssümdür. Təbəssüm ifadəli bir emosiya kimi çığırtıdan xeyli sonra, ikinci ayda müşahidə olunur. Bu uşağa qarşı yaşlının nəvazişi, gülümsər baxışları fonunda baş verir. Psixoloqlar bu zəmində bir qədər sonra uşağın emosional sferasında yaranan sintetik hərəkətləri **«canlanma kompleksi»** adlandırırlar. Bu fenomen ilk dəfə rus psixoloqu N.M.Şelivanov tərəfindən ötən əsrin 20-ci illərində kəşf olunmuşdur. O, «canlanma kompleksi»ndə 4 əsas komponenti qeydə almışdır:

1. Görmənin mərkəzləşməsi;
2. Təbəssüm;
3. Hərəki canlanma;
4. Vokalizasiya (qırıq-qırıq uca səslər)

«Canlanma kompleksi»nın mahiyyəti ondan ibarətdir ki, uşaq əyilərək ona tərəf baxan adama gülümsəyir, əlləri və ayaqları ilə canlı hərəkətlər edir, sakit səslər çıxarır. Bu, uşağın emosional ünsiyyəti, yaşlı ilə ünsiyyətə ilk sosial təlabatı kimi üzə çıxır. «Canlanma kompleksi»çağalıq dövrü ilə körpəlik dövrünün sərhəddində, yəni körpəlik dövrünün başlanması ərəfəsində yaranır.

Körpəlik dövründə uşağın duyğuları fonunda **qavrayışın** sadə formaları müşahidə olunur. Görmə, eşitmə, dad, lamisə və iybilmə duyğularının inkişafı körpənin qavrayışının, ilk dərk etmə fəaliyyətinin əsasını qoyur. Artıq ikinci aydan başlayaraq uşaq müstəqil olaraq öz baxışlarını bir əşyadan digərinə keçirməyə nail olur. İki aylıq körpələr yaxşı qidalandıqda, sakit vəziyyətdə olduqda onların vaxtlarının çox hissəsi ətraf obyektləri izləməyə yönəlir. Bununla belə, qeyd etmək lazım gəlir ki, iki-dörd aylıq körpələrdə görmə qabiliyyəti nisbətən zəif olur. Təxminən üçüncü ayın sonralarında uşaqlarda gözün hərəkətlərinin nisbətən yaxşı inkişaf etdiyini müşahidə etmək olar. Bu hərəkətlərin inkişafı və

formalaşması prosesi tamamilə genetik mənşəli deyildir. Onun sürəti və keyfiyyəti xarici stimullardan da əhəmiyyətli dərəcədə asılıdır.

İkinci aylıqdan etibarən körpə adamlara uyğunlaşır, onları ətraf aləmin əşyalarından ayırmağa nail olur. 2-3 aylığında körpə ananın təbəssümünə adekvat olaraq **ümumi fəal hərəkətlərlə** cavab verir. Üç-dördüncü aylıqda uşaqlar öz davranışları ilə yalnız tanış adamlarla, əsasən ailə üzvləri ilə, yəni ən yaxın sosial əhatə ilə ünsiyyətə qoşulurlar. Səkkiz aylığında uşaq hətta ana yanında olmasına baxmayaraq, yad mühitdə özünü narahat hiss edir. Bu hal bir yaşın sonunadək davam edir. Bununla birlikdə, uşaqlarda doğma adamlara bağlılıq, ana ilə birlikdə olmağa cəhdetmə təşəbbüsləri də bu yaş dövründə güclü olur. Naməlum şəraitdən və yad adamlardan qorxu hissi uşaqlarda 14-18 aylığında daha mövcud olan **özünüqoruma instinkti** ilə bağlı olub, qeyd olunan dövrdə uşaqlarda özünümüdafiə reaksiyalarının zəif olması ilə əlaqədardır. Bir yaşın sonuna doğru uşaqlarda qavrayışın əşyavilik xüsusiyyəti, yəni duyğuların və obrazların ətraf gerçəkliyin əşyalarına aidliyi meydana gəlir. Uşaq dünyaya gəldikdən sonra birinci ay ərzində səslərin tembrini və ucalığını fərqləndirmək qabiliyyətinə malik olur. Həyatın birinci ilinin sonuna doğru körpə əşya və hadisələrin ilkin obrazlarını **hafizədə** saxlamağa qadir olur. Əgər 3-4 aylıqdan sonra körpə qavrayış obrazlarını hafizədə cəmi bir saniyə ərzində saxlaya bilirsə, sonrakı aylar dövründə obrazları yaddasaxlamanın müddəti xeyli artır. Psixoloji tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, uşaq ananın səsini və sifətini günün istənilən vaxtında tanımaq qabiliyyətinə malik olur. 8-12 aylıqda körpə görmə məsafəsində olan əşyaları fərqləndirə bilir, onları tam qavramaqla yanaşı, ayrı-ayrı hissələrini də qavrayır. Bu dövrdə uşaqlarda **fəal axtarış refleksi** müşahidə olunur. Belə ki, uşaq gözü qarşısındakı əşyanın qəflətən yoxa çıxmasını duyur və onu axtarmaq cəhdləri göstərir.

O, körpəlik dövründə uşaqlarda qavrayışın inkişafında mənimsənilmiş koqnitiv sxemlərin mühüm rolunu qeyd etmiş, onları **qavrayışın əsas**

**vahidləri** adlandırmışdır. Onun fikrincə, uşaq obyekti və ya onun obrazlarını qavrayarkən bu sxemlər hafizədə dərin izlər qoyur ki, bu da obyekt haqqında informativ əlamət kimi özünü göstərir. Bir yaşın sonunda uşaqlarda dərketmə fəaliyyətinin məcmuyu kimi **sensomotor intellekt** formasında təfəkkürün ilkin əlamətləri nəzərə çarpır. Bu yaşda uşaqlar əşyaların elementar xüsusiyyətlərini mənimsəyir və praktik fəaliyyətlərində bundan istifadə edirlər. Onlarda təfəkkürün sonrakı inkişafı **nitqin inkişafı** ilə sıx əlaqədə baş verir. Körpəlik dövründə nitqin inkişafı uşağın ünsiyyət dairəsi fonunda doğularkən təbii olaraq ona verilən **empatiya qabiliyyəti** başqa adamın emosional vəziyyətini onun mimikası, jestləri və pantomimkasını anlamaq qabiliyyəti bazasında yaranır. Bu dövrdə əyani-əməli təfəkkürün ilkin əlamətləri əlin manipulyativ hərəkətlərində, hiss orqanlarının fəaliyyətinin təkmilləşməsi, bütün əməliyyat strukturlarının və onlar arasında koordinasiyanın formalaşması fonunda baş verir. Həyatın ilk aylarından etibarən körpədə insan nitqinə, danışıq səslərinə üstün maraq təzahür edir. Uşaq bu səsləri maddi aləmin hər cür digər səslərindən fərqləndirir. 1-2 aylığında körpə **a-a, u-u, ə-ə,** tipli sadə səsləri tələffüz etməyə başlayır. İki-dörd aylığında körpədə ilk **vokalizasiya** yaranır. Dörd-altı aylıqda inildəmə, sızıldama, «zingildəmə» və səsli ağlama reaksiyaları meydana gəlir. Uşaq nitqin bu məhdud imkanlarından yaşlılarla ünsiyyətdə istifadə edir. Artıq 3-4 aylığında körpədə təsadüfən tələffüz edilən səslərin repertuarı genişlənir.

**«a-o-u», «yu-a-a»** tipli səs birləşmələrinin təzahürləri müşahidə olunur. Körpədə ilkin nitq reaksiyaları yaşlılarla qarşılıqlı münasibətlər zəminində yaranır və uşaq bu ünsiyyət formasına yaşlılarla zəruri ünsiyyət situasiyalarında istinad edir.Bu zaman o, ifadəli hərəkətlərin spesifik komplekslərindən istifadə edir,ayrı-ayrı sözləri və frazaları yaşlıların emosional vəziyyətinə uyğunlaşdırır.Altı-yeddi aylığından başlayaraq uşaq qavranılan əşyanı onun adı ilə əlaqələndirməyə nail olur. Üçüncü aydan

başlayaraq körpənin həyatında emosional ünsiyyətin ilkin formalarından biri kimi **gülüş**- sevinc hissinin təzahürü meydana çıxır və bu altıncı ayın sonunda davamlı xarakter almış olur. Bu dövrdə körpədə yaşlıların diqqət mərkəzində olmaq təşəbbüsləri genişlənir, nitqdə **day-day-day, ta-ta-ta** tipli səs birləşmələri meydana gəlir. Doqquzuncu aylıqda körpədə baş verən hadisələrə qarşı emosional münasibəti əks etdirən yalançı, uydurma sözlərin tələffüzü, arzunu səslər vasitəsilə ifadə etmək cəhdləri müşahidə olunur. On-on birinci aylıqda uşaqlar mənası sosial mahiyyət kəsb etməyən, yəni hamı tərəfindən işlədilməyən «**fu», «təhmi», «arşı», «onna»** və s. tipli yalançı jarqon sözlərdən istifadə etməyə başlayırlar. Bununla belə, uşaqların nitqində **«nənə», «baba», «dədə»** tipli eynihecalı sözlərin repertuarı get-gedə artır.

Psixi inkişafın dövrləşdirilməsinə görə, uşağın həyatının 1 yaşdan 3 yaşadək olan dövrü **ilk uşaqlıq** və ya **erkən uşaqlıq dövrü** adlanır. Müasir elmi nəticələrə görə, bu dövr uşağın həyatında, onun gələcək psixi inkişafında çox mühüm mərhələdir. Körpəlik dövründən sonra başlanan bu inkişaf mərhələsi uşağın əldə etdiyi üç başlıca üstünlüklə **ayaq üstə yerimə, nitqin ünsiyyət və əşyavi fəaliyyətlə** xarakterizə olunur. Ayaq üstə yerimə uşağın məkana daha geniş şəkildə bələdləşməsini təmin edir, onun yeni-yeni məlumatlar qazanmasına imkan yaradır. Nitqli ünsiyyətə sahib olan uşaq yaşlılar və tərbiyəçilər vasitəsilə həyat hadisələri, ətraf aləm haqqında yeni biliklər, bacarıq və vərdişlər əldə edir, mədəni dəyərlərə, əxlaq normalarına sürətlə yiyələnmək imkanları qazanır. Əşyavi fəaliyyət uşağın əqli qabiliyyətlərinin, əl hərəkətlərinin daha da təkmilləşməsinə, inkişaf etməsinə təkan verir. Həyatın üçüncü ilinin sonunda uşağın psixikasında əhəmiyyətli keyfiyyət dəyişikliklərini müşahidə etmək mümkündür. Körpəlik dövrü üçün xarakterik olan əşyavi-manipulyativ fəaliyyət üç yaşın sonunda **bələdləşmə- tədqiqatçılıq, quraşdırma** kimi fəaliyyət növləri və yaradıcı xarakterli işlərlə əvəz olunur. Təxminən üç

yaşın sonunda uşaqlarda psixi-idrak proseslərinin dinamik göstəriciləri dərketmə və praktik fəaliyyətdə özünü aşkar biruzə verir. Uşaqda **qavrayış, hafizə, təxəyyül, diqqət** kimi proseslər heyvanların psixikasından köklü şəkildə fərqlənir və insani xassələr qazanır. Bu yaş dövründə ən üstün cəhətlər ondan ibarətdir ki, uşaq onun həyatının sonrakı **intellektual və şəxsiyyət keyfiyyətlərinin baza əlamətlərinə** sahib olur. Burada söhbət ilk növbədə insanlarla ünsiyyətdə dildən istifadə etmək və onu anlamaq qabiliyyətinin formalaşmasından gedir. Müasir psixoloji təsəvvürlərə görə, üç yaşın sonunda uşaqda artıq elə psixoloji və sosial keyfiyyətlər yaranır ki, bu onu müəyyən mənada **şəxsiyyət yönümlü keyfiyyətlər sahibi** kimi xarakterizə etməyə imkan verir. Nitqin və idrak proseslərinin inkişafı uşağa sürətli şəkildə bilik, bacarıq və vərdişləri, insan davranışının formalarını mənimsəməkdə kömək edir. O, insanların yaratdığı maddi və mənəvi mədəniyyətin nailiyyətləri ilə tanış olmaq imkanına malik olur. Burada nitqin rolu olduqca böyükdür. Onun sayəsində uşaq yaşlılarla özünün işgüzar münasibətlərini yaradır, şüurlü və məqsədəyönəlmiş xarakter daşıyan təlim və tərbiyə proseslrinə qoşulmaq imkanına malik olur. Körpəlik dövründə uşağın əldə etdiyi uğurlardan biri də **semiotik funksiyadır.** 1,5-2,5 yaşlarında uşaqlar sözləri birləşdirməklə iki-üç sözlü cümlələr qurur, fəal müstəqil nitqə doğru inkişaf edirlər. Artıq üç yaşın sonunda uşaq 6-7 sözdən ibarət cümləni təkrar etməyi, cəm şəkilçisini, ismin hallarını düzgün işlətməyi, sözləri **qrammatik cəhətdən uzlaşdırmağı** bacarır. Həyatın ikinci ilindən etibarən uşaqlarda əhatə olunduqları ətraf aləmə qarşı maraq kəskin şəkildə artır. Onlar hər şeyi eşitmək, hər şeyə baxmaq, bilmək və toxunmaq istəyirlər. Bu maraq onların oyuncaqları söküb-dağıtmalarında sındırmalarında əks olunur. Əşyaların adı və baş verən hadisələr onları maraqlandırdığından yaşlılara «Bu nədir?» tipli suallarla tez-tez müraciət edirlər. Belə hesab olunur ki, bu dövrdə uşağın **passiv nitqindəki** sözlərin sayı müəyyn qədər azalır, yəni onların çoxu **aktiv nitqə** keçir. Üç yaşında

aktiv nitqlə passiv nitqin nisbəti azalaraq 1:1,3-ə enir. Yaş yarımlıqda uşaq onu əhatə edən əşyaların adını öyrənmək üçün mimika, jest və pantomimikadan istifadə edir. Bu məqsədlə o, barmağını onu maraqlandıran əşyaya doğru uzadır və yaşlılardan cavab gözləyir. Sonralar isə bu jestlərə suallar da qoşulur. Maraqlı cəhətlərdən biri ondan ibarətdir ki, uşaqlar əvvəllər adını eşitdiyi əşyanı göstərərək təkrarən onun nə olduğunu soruşurlar. Uşağın tanıdığı bu əşyanın adını yaşlılar düzgün demədikdə, o qane olmur, doğru cavab alanadək sualı dönə-dönə təkrarlayır. Belə suallarla uşaq öz biliklərini yoxlayır, onları sınaqdan keçirir. Üç yaşından etibarən uşaqlar yaşlıların özləri üçün maraqlı olan söhbətlərini, xüsusilə, hekayələri, nağıl və şerləri dinləməyi xoşlayırlar. 2-3 yaşlarından etibarən uşaqlarda cümlənin qrammatik quruluşu-nun formalaşması prosesi intensiv xarakter alır. Tədricən uşağın nitqində az miqdarda da olsa, **çoxmənalı sözlər** nəzərə çarpır. Psixoloqların fikrincə, bu sözlər o qədər də çox olmayıb, uşağın lüğət ehtiyatının 3-7% bərabər olur. 2,5-3 yaşlardan etibarən uşaq yaşlıların sözlü təlimatlarını dinləməyi, tələblərə uyğun hərəkət etməyi bacarır. Üç yaşlı uşağın nitqi əsasən sadə cümlələrdən qurulur.

İlk uşaqlıq dövründə uşağın **nitqi situativliyi ilə fərqlənir.** Uşağın yaşlı ilə münasibəti sabit olmayıb, hal-hazırki anda ona münasibətdən asılı olur. Uşağın nitqi yaşlının nitqindən, qarşılıqlı olaraq verilən suallardan asılı olmaqla dialoq şəklində qurulur. Uşağın təqlidetmə qabiliyyəti onun nitqinin bütün aspektlərinin, xüsusilə fonetika və qrammatikanın formalaşmasına təsir göstərir. Yaşlılar tərəfindən rəğbətləndirilmə uşağın nitqinin sürətli inkişafına güclü təsir göstərir. Qapalı mühitdə, uşaq evlərində böyüyən uşaqların nitqi xeyli kasıb olur. Belə mühitdə uşağın **sözyaratma imkanları** xeyli məhdudlaşır. Artıq üç yaşlı uşaq dairə, kvadrat, üçbucaq və s. kimi bəzi həndəsi formaları, həmçinin rəng spektrinin əsaslarını fərqləndirə bilir, onda **forma, məkan, zaman və hərəkət qavrayışının** bəsit formaları meydana gəlir. Onlar əşyaları sadə müqayisə yolu ilə tutuşdurur, sadə

ümumiləşdirmələr aparır və bundan məsələ həllində istifadə edirlər. Qavrayış vasitəsilə uşağın hissi dərketmə fəaliyyətinin məhsuldarlığı artır. Uşağın hafizəsi, nitqi təfəkkürü və hərəkətlərinin təkmilləşməsində qavrayışın çox böyük rolu vardır. Bu yaş dövründə uşaqlar əşyaları seçərkən ən sadə və aydın fərqlənən əlamətləri, ilk növbədə formanı əsas götürürlər. İlk uşaqlıq dövründə qavrayışın inkişafında üç əsas **parametr-perseptiv əməliyyatlar, sensor etalonlar və tutuşdurma əməliyyatları** əsas yer tutur. İlk uşaqlıq dövründə tədricən əyani-hərəki təfəkkürdən **əyani-obrazlı təfəkkürə** keçid baş verir. Onlar maddi əşyalar üzərində əməliyyatları tədricən onların obrazları üzərində əməliyyatlarla əvəz edirlər.

Bu dövrdə **təfəkkürün inkişafı** uşağın əşyavi fəaliyyəti prosesində baş verir. Onların əşyavi fəaliyyəti praktik fəaliyyətdən tədricən əqli fəaliyyətə keçid üçün çox mühüm bir mərhələdir. Əşyalarla əməliyyatların yerinə yetirilməsi və onların sözlərlə ifadəsi uşağın fikri proseslərini formalaşdırır. Onların sırasında daha böyük əhəmiyyət kəsb edən fikri əməliyyatlardan biri **ümumiləşdirmədir.** Lakin uşağın təcrübəsi az olduğuna görə, o, əşyalar qrupunda mühüm, başlıca əlamətləri düzgün ayıra bilmir, çox vaxt səhvlərə yol verir. Məsələn, şar sözü uşaq üçün bütün yumru formalı əşyaların ümumiləşmiş simvolu kimi qavranılır. Onlar bütün növ baş örtüklərini papaq adlandırırlar. İlk uşaqlıq dövründə psixi inkişafda **sensor təsəvvürlərin** əhəmiyyəti olduqca böyükdür. Bir sıra alimlər (K.Büler, L.V.Zaporojets, A.A.Venqer) belə hesab edir ki, həyatın ilk illərində qavrayışın inkişafı təfəkkürün inkişafına əhəmiyyətli təsir göstərir. Bu onunda əlaqədardır ki, bu dövrdə qavrayış əməliyyatları təfəkkürün **ümumiləşdirmə, təsnifat, anlayışa daxil etmə** və s. kimi əməliyyatları ilə bağlıdır. Bu özünü iki əsas hadisə- **elementar özünüdərketmənin yaranması və ixtiyari özünütənzimetmə** fonunda baş verir. Görkəmli psixoloq J.Piaje qeyd edirdi ki, bu yaş dövründə uşaqların təfəkkürünün, fikri əməliyyatlarının strukturunda **eqosentrizm** (başqa nöqteyi-nəzərdə

dura bilməmək) əsas yer tutur. Psixoloq 3-4 yaşlı uşaqlarla keçirdiyi eksperimentlər zamanı bu qanaətə gəlmişdir ki, onlar mühakimə yürütməkdə acizdirlər. Məsələn, «Ailədə 3 oğlan var. Onlardan 4 yaşı olandan soruşulur: «Sənin neçə qardaşım var?» O, iki qardaşı olduğunu söyləyir. Həmin uşaqdan «Sənin böyük qardaşının neçə qardaşı var?» sualına o, doğru cavab verə bilməmiş, bir qardaşı olduğunu söyləyərək özünü unutmuşdur.

Erkən yaşlı uşaqlarda qavrayışla təfəkkür arasında əlaqənin inkişafını tədqiq edən psixoloq L.A.Venqerin qənaətinə görə, bu yaş dövründə uşaqlarda obrazlı təfəkkürlə məntiqi təfəkkürün «sərhəddində» **təfəkkürün modal forması** mövcuddur. O, məktəbəqədər yaşlı uşaqlar üçün inkişafetdirici proqramlar işləyib hazırlamışdır ki, onlar da uşaqlarda ümumiləşdirmənin məntiqi əməliyyatlarının formalaşmasına əlverişli təsir göstərir. Belə tapşırıqlar içərisində «Kənar əşyanı ayırmaq», «Əşyanı uyğun yerə yerləşdirmək», «Naxışı tamamlamaq», «Uyğun olanı seçmə» və s. əsas yer tutur. Məsələn, şəkildə dovşan,it, kələm, alma və sümük təsvir olunub. Uşaq uyğun gələn qidanı düzgün seçməlidir. Bütün bunların sonunda uşağın müəyyən səviyyədə inkişaf etmiş **təxəyyülü** nəzərə çarpır.

Uşağın şəxsiyyətinin hansı dövrdən başlayaraq formalaşması məsələsi psixologiyada ziddiyyətli və mübahisəli bir problemdir. Vaxtilə bu prosesin yeniyetməlik dövründən başlandığı fikri irəli sürülürdü. Lakin son dövrlər aparılan tədqiqatlar nəticəsində sübut edilmişdir ki, artıq üç yaşında uşaqlarda şəxsiyyətin bir sıra **davamlı və sabit xarici davranış əlamətləri** formalaşmış olur. Bəzi psixoloqlar isə bu prosesin daha erkən, bir yaşında başladığını söyləyir və qeyd edirlər ki, uşağın şəxsiyyətinin formalaşmasının bu mərhələsində xarici müşahidə zamanı aydın nəzərə çarpan əlamətlər olmasa da, bu dövrdə inkişaf uzun müddətli, gizli dövrdən keçir. Ətraf adamların davranışını təqlid etmək ilk uşaqlıq dövründə uşağın şəxsiyyət kimi inkişafının əsas mənbələrindən biri kimi özünü göstərir.

**Valideynlərə bağlılıq hissi** körpəlik dövründə bütün uşaqlarda

təzahür edən sosial- psixoloji hisslərdən biridir. Bu hiss genetik köklərə bağlı olmaqla bir çox canlıların balalarında da müşahidə olunur. Bu, bir tərəfdən ananın körpə üçün başlıca bioloji və sosial təlabatların mənbəyi olması ilə bağlıdırsa, digər tərəfdən onların təhlükəsizliyinin təmin edilməsi kimi anlaşılır.

Müəyyən edilmişdir ki, həyatın ilkin dövrlərində müsbət emosional ünsiyyət mühiti olmayan, tərif, sevgi, və nəvazişdən məhrum olan uşaqlar böyüdükdən sonra insanlarla normal və etibarlı qarşılıqlı emosional münasibətlər qurmaqda çətinlik çəkirlər. İlk uşaqlıq dövründə şəxsiyyətin formalaşması uşaqlarda özünüdərketmənin yaranması ilə sıx bağlıdır. Bu dövrdə uşaq güzgüdəki əksinə baxıb özünü tanıyır adı ilə çağrıldıqda dönüb baxır, nitqində «Mən» şəxs əvəzliyini daha fəal şəkildə işlətməyə başlayır, onda **«mən obrazı»** yaranır. Uşaqda bir subyekt kimi özü haqqında ilkin təsəvvürlər yarandıqdan sonra o, ətrafdakı adamlarla fəal ünsiyyətə qoşulur. Bu, uşağın psixikasında şəxsiyyətə məxsus digər yeni əlamətlər də yaradır. Üç yaşlı uşaqlar özlərini başqa adamlarla müqayisə edir, tədricən onlarda müəyyən səviyyədə **özünüqiymətləndirmə,** yaşlıların tələblərinə uyğunlaşmanın ifadəli təzahürləri nəzərə çarpır. Bir qədər sonra uşaqlarda fərəh, utancaqlıq hissi və **iddia səviyyəsi** formalaşır. İlk uşaqlıq dövrünün sonunda müstəqillik meyli güclənir, onlarda **«üç yaşın böhranı»** adlanan yaş böhranı müşahidə olunur. Onlar oyun, geyim və ya yemək zamanı yaşlıların hər hansı köməyindən imtina edir, **«mən özüm»-** deyə müstəqil fəaliyyət təşəbbüslərini göstərirlər. Yaş yarımlıqdan etibarən sərbəst gəzən uşaqlar axtarışlar aparır, özləri üçün süni maneələr yaradır, nərdivana dırmaşır, bağlı qapını açmağa çalışırlar. Bütün bunlar uşaqlarda məmnunluq hissi yaradır, onlarda güc, qüvvə, dözümlülük və məqsədəyönəlmişlik kimi şəxsiyyətə məxsus xarakterik keyfiyyətlər formalaşır. İkinci yaşdan başlayaraq uşaqların davranışında **neqativizm meylləri,** qadağanlara məhəl qoymamaq, şıltaqlıq kimi mənfi davranış halları yaranır. Bu cür halları

psixoloqlar üç yaşın böhranı ilə əlaqələndirirlər. Onun əsas səbəbləri bu yaşdan etibarən uşaqlarda tədricən ətraf aləmin dərk edilməsinə qarşı yaranan tələbatlarla, onların müstəqil subyekt kimi əldə etdikləri bilik və bacarıqlardan həzz almaq effekti ilə bağlıdır. Bu dövrdə onlar öz səyləri nəticəsində əldə etdikləri uğurdan fərəhlənir və bunu yaşlılara nümayiş etdirmək üçün dəfələrlə təkrarlayırlar. Onlar yaşlıların qadağanlarına məhəl qoymur, müqavimət göstərməyə çalışırlar. Uşağın bu cür etirazı yaşlıların ona qarşı münasibətdə **qeyri-adekvat** olmalarına cavab reaksiyasıdır. Yaşlılar uşağa qarşı qəti müqavimət göstərdikdə isə o, özünü olduqca şıltaq aparır, ağlayır, döşəməyə yıxılır, əşyaları hara gəldi atır. Bu, uşağın öz mühiti ilə ziddiyyətdə olduğunu əks etdirir və onun ontogenezində ilk güclü həyatı yaş böhranının əlaməti olub, yeni bir inkişaf mərhələsinə keçidinin əsasıdır. Artıq iki yaşlı uşaqların şəxsiyyət keyfiyyətlərinin inkişafında iradənin ilkin təzahürləri meydana çıxır. Onlar yaşlıların davranışını öz təkidləri ilə istəklərinə tabe etməyə çalışır özünü ətrafdakı adamlardan fərqləndirmək üçün bəzi şəxs əvəzliklərindən istifadə edirlər.

İkinci yaşın sonlarında uşaqda tədricən özünüdərketmənin təzahürləri müşahidə olunur və bu, onlarda empatiyanın-başqa adamların emosional vəziyyətini anlamaq qabiliyyətinin yarandığını əks etdirir. Bu dövrdə uşaqlar başqa adamın psixoloji vəziyyətini dərk edir, ağlayan uşaq və ya yaşlılara yaxınlaşır, onlara təsəlli verməyə, öpməyə, oyuncaq və ya dadlı bir şey verməyə çalışırlar. Həyatın üçüncü ilindən başlayaraq uşaqlarda şəxsiyyətin işgüzar keyfiyyətlərindən biri olan **uğur əldə etməyə tələbatın** formalaşması üçün əlverişli imkanlar yaranır. Bu isə uşaqlıq dövründə artıq motivləşmə sferasının ilkin təzahürlərinin yaranmasına sübutdur. Bu əsasda uşaqlar onlara verilən tapşırıqların çətinlik dərəcəsini frqləndirir, onların yerinə yetirilməsi üçün öz şəxsi imkanlarını, qabiliyyətlərini götür-qoy edirlər. Fəal nitqli ünsiyyət vasitəsilə uşaq əhatə olunduğu adamlardan şəxsiyyətinin inkişafı üçün zəruri olan informasiyaları əldə edir. Nitq uşağın söz vasitəsilə rəğbətləndirilmə və cəzalandırılma, davranış üzərində

nəzarət və özünənəzarət vasitəsinə çevrilir. O, uşağın tabe olduğu **əxlaq qaydaları və normalarının** daşıyıcısı rolunda çıxış edir. Yaşlı ilə ünsiyyət, birgə əşyavi fəaliyyət uşaqların idrak proseslərinin inkişafına səmərəli təsir göstərir. Psixoloq M.İ.Lısina qeyd edir ki, bu dövrdə **aparıcı ünsiyyət növü situativ- işgüzar ünsiyyətdir.** Nitqin mənimsənilməsi uşağın şəxsiyyətinin formalaşması prosesinin sürətləndirilməsi, keyfiyyətcə yenidən qurulması vasitəsi kimi özünü göstərir. Buna görədir ki, uşağın psixikasında hiss edilən dəyişikliklər məhz ilk uşaqlıq dövründə nəzərə çarpır. **Nitqi anlama və danışma** ilk uşaqlıq dövründə bütöv sistem olaraq diqqəti cəlb edir. Nitqi anlama uşağa öz hərəkətlərini və davranışını yaşlılar tərəfindən qiymətləndirilməsini dərk etməyə imkan yaratdığı halda, danışma ona yaşlılarla dialoqa qoşulmağa, onların davranışını qiymətləndirməyə və təsir göstərməyə, öz istək və tələbatlarını verbal şəkildə ifadə etməyə imkan yaradır.

Bütün bu amillərin təsiri altında üç yaşın sonunda uşaqlarda özünüdərketmə, ilkin əxlaqi normaların, insan davranışı qaydalarının mənimsənilməsi, davranışın iradi özünütənzimetmə forması meydana çıxır. Erkən uşaqlıq dövründə şəxsiyyətin inkişafında nəzərə çarpan mühüm xüsusiyyətlərdən biri də **emosional sferanın labilliyidir.** Həmin dövrədək uşağın əşyalara və başqa adamlara qarşı münasibətini davamlı xarakter daşımır və şəraitin dəyişməsindən asılı olaraq dəyişə bilər.

Məktəbəqədər yaş adlanan, 3-6 yaş intervalını əhatə edən dövrü psixoloqlar şəxsiyyətin formalaşması və təşəkkülündə məhsuldar bir dövr hesab edirlər. Bu yaş dövrü gələcək yaşlı adamın ruhi və əməli fəaliyyətinin, mənəvi simasının, yaradıcı potensialının tükənməz xəzinəsidir. Uşaq psixologiyasında insanın həyatının məktəbəqədər yaş dövrü öz əhəmiyyəti baxımından müxtəlif nöqteyi- nəzərdən təhlil olunmuş, yüksək qiymətləndirilmişdir. Məşhur psixoloqlardan K.Q.Yunq bu dövrü **«fəallığın kapital yığımı»** A.N.Leontyev **«faktiki olaraq şəxsiyyətin ilkin**

**təşəkkülü»,** Q.S.Sallivan «**simvolik imkanların təşəkkülü»,** L.S.Vıqotski **«Mən»in sosializasiyası»,** J.Piaje isə «**sensomotor qabiliyyətlirin və intellektin inkişafı»** dövrü kimi səciyyələndirmişlər. V.Bulyuma görə, 4 yaşında uşağın fərdi xüsusiyyətləri o səviyyəyə çatır ki, artıq bu yaşda şəxsiyyət və əqli xüsusiyyətlərin **bir sıra daimi əlamətlərindən** danışmaq olar.

Bu dövrdə uşağın sensor və emosional sferasında yaşlılarla qarşılıqlı fəaliyyət üsullarında olduqca əhəmiyyətli dəyişikliklər baş verir. Məktəbəqədər yaş dövrü uşağın idraki fəallığının çiçəklənmə dövrüdür. 3-4 yaşlı uşaq situasiyanı qavramaq təzyiqindən azad olur, gözü önündə baş verən hadisə və dəyişikliklər haqqında düşünməyə başlayır. O, ətrafında baş verənlərə qarşı passiv seyrçi deyil, **fəal müşahidəçi mövqeyindən** yanaşır, hadisələr arasında səbəbiyyət əlaqələrini anlamağa çalışır. Beş yaşlı uşaqlar çoxsaylı suallarla yaşlıları «bezdirir», bilmədikləri hər şey haqqında onlara çoxsaylı suallar verirlər. Həyat hadisələri, təbiətdə baş verənlərə qarşı onların ilk mühakimələri meydana çıxır. Psixoloqlar uşağın bu dövrünü **«kiçik filosofluq dövrü»** adlandırırlar. Onlar Ayın və Günəşin mənşəyi, bitki və heyvanların fərqi və oxşarlığı, onların xüsusiyyətləri barədə müxtəlif mühakimələr irəli sürürlər. Tədricən uşağın **dünyagörüşünün ilk konturları** yaranır. Məktəbəqədər yaş dövründə uşaqların qavrayışı səthi xarakter daşımaqla böyüklərin qavrama imkanlarından xeyli geri qalır. Məsələn, onlara elə gəlir ki, Günəş və Ay, köldə gəzinti zamanı onları izləyir: onlar dayandıqda dayanır, qaçdıqda qaçır. Uşaqların belə ani qavrayışı onlara qəti həqiqət kimi görünür. Məktəbəqədər yaşlı uşaqların idrak fəaliyyətini dərindən araşdırmış məşhur İsveçrə psixoloqu Jan Piaje bu hadisəni **«realizm»** adlandırmışdır.

Məktəbəqədər uşaqlıq dövründə psixi funksiyalar içərisində **hafizə** mərkəzi yer tutmağa başlayır. **Təfəkkür** ümumi təsəvvürlər planında fəaliyyət göstərmək imkanı qazanır. Uşaqlarda **ilk idrak maraqları**

meydana gəlir, **təxəyyül** fəaliyyətə qoşularaq uşaq yaradıcılığının vasitəsinə çevrilir. Məktəbəqədər yaşlının həyatında və psixi inkişafında **rollu-süjetli oyunlar** aparıcı fəaliyyət forması kimi özünü biruzə verir. Onun vasitəsilə uşağın psixikasının əsas dayaqları yaranır, təbii və sosial gerçəkliyin mənimsənilməsinin spesifik üsulları meydana çıxır. Uşaqların yaşı dəyişdikcə rollu-süjetli oyunların da məzmunu dəyişir. Kiçik məktəbəqədər yaşlı uşaqların həyatında əşyavi oyunlar əsas yer tutduğu halda, orta məktəbəqədər yaşda insanlar arasındakı münasibətlər, böyük məktəbəqədər yaşda isə, onlar arasındakı münasibətləri tənzimləyən qaydalara aid oyunlar ön planda olur.

Məktəbəqədər yaş dövründə yeni fəaliyyət formaları- **rəsmetmə, yanma, applikasiya, quraşdırma** ilə yanaşı, **təlim fəaliyyəti elementləri** meydana gəlir. Bağça yaşı dövründə uşaqların ünsiyyəti **situativlikdən** azad olub, idraki məzmun kəsb etməyə başlayır. 4-5 yaşlı uşaqların ünsiyyət fəaliyyətində idrak motivləri, yaşlıların tərifinə təlabat hissi güclənir,şəxsi ünsiyyət motivləri yaranır. Uşaqların ünsiyyətində **verbal imkanlar** genişlənir, onun əsas vasitəsi olan nitqin inkişafı, lüğət fondunun artımı sürətlə davam edir. Bu, uşağa yaşlılar və yaşıdları ilə fəal nitqli ünsiyyətə qoşulmaq imkanı verir. 2-4 yaşlı uşaqların ünsiyyəti praktik-emosional qarşılıqlı münasibətlər müstəvisində qurulduğu halda, 4-6 yaşlı uşaqlarda **yaşıdları ilə situativ- işgüzar əməkdaşlığa təlabat güclənir**. Ünsiyyətin məzmunu uşaqların birgə oyun fəaliyyətinin xarakterindən asılı olur, **yaşıda təlabat hissi və onu tanıma motivləri** güclənir.

Məktəbəqədər dövrdə uşaq kollektivində diferensiasiya prosesi güclənir: bəzi uşaqlar məhşurlaşır; başqaları isə təcrid olunur, və ya rədd edilir. Uşağın həmyaşıdları qrupunda mövqeyinə bir çox amillər, başlıca olaraq **yaşıdlarının dərdinə şərik olmaq hissi**, onlara kömək etmək istəyi əsas yer tutur.

Məktəbəqədər yaşlı uşaqların şəxsiyyət yönümdə inkişafında diqqəti cəlb edən xüsusiyyətlər sırasında **rol-cins** və **iradi** davranış formaları əhəmiyyətli yer tutur. Uşaqlarda iradənin inkişafı onlarda motivləşmə sahəsinin, uşağın formalaşma yolunda olan şəxsiyyətinin istiqaməti ilə sıx bağlıdır. İradənin ilkin keyfiyyətlərinin formalaşması zəminində onlarda tədricən **davranışın ixtiyari formaları, motivlərin ilk qarşılıqlı tabeliliyi yaranır.** Psixoloqların fikrincə, məhz məktəbəqədər yaş dövründə ilk dəfə olaraq uşaqlarda **«etik instansiyalar»** (L.S.Vıqotski) əxlaqi təsəvvürlərin, qiymətləndirmə və davranışın ilk əlamətləri təzahür etməyə başlayır, sosial və əxlaqi hisslər intensiv inkişaf yoluna qədəm qoyur, özünüdərketmə və özünüqiymətləndirmənin əsasları yaranır.Uşağın məktəbəqədər yaş dövrünın sonunda, 6 yaşın tamamında **yeni yaş böhranı** müşahidə olunmağa başlayır. Onun xarici təzahürləri uşağın **spesifik ədalarında, özünü naza qoymasında, davranışın nümayişkəranə formalarında** əks olunur. Uşaq ipə-sapa yatmaz olur, adət edilmiş davranış etalonlarının çərçivəsini pozur, onun sanki yaşlılardan asılılığı azalır. Uşağın psixi həyatında yaranan bu simptomlar onun intellektual imkanlarının genişlənməsi ilə paralel surətdə baş verir. Onun zaman perspektivləri genişlənir, ictimai həyata qoşulmaq, müəyyən sosial mövqe tutmaq cəhdləri diqqəti cəlb edir. Bütün bunlar uşağın məktəbdə təlimə başlaması ərəfəsində baş verir və onun məktəbdə qəbul edilməsi ilə reallaşmış olur.

Məktəbəqədər uşaqlıq illəri uşağın psixi inkişafında ilkin mərhələ, cəmiyyət həyatında iştiraka hazırlığın əsasıdır. Bu mərhələ ümumi psixi və əqli inkişafda məhsuldar dövr kimi xarakterizə olunur. Məktəbəqədər yaşın sonunda uşağın inkişafında nəzərə çarpan üstünlüklər, onun anatomik-fiziki, psixi və sosial imkanları **məktəb təliminə funksional hazırlığı** şərtləndirir. Məktəbəqədər yaş dövründə, yəni həyatın ilk altı ilində uşağın əldə etdiyi təsəvvürlər, məlumatlar fondu, ümumi əqli inkişaf uşağın məktəb yetkinliyinin göstəricisinə çevrilir. Bu cəhətdən məktəbəqədər yaş

dövrünü həm də psixi inkişafda yeni bir mərhələnin-kiçik məktəb yaşı dövrünün başlanğıcı da adlandırmaq olar. Məktəbəqədər yaşda uşaqların fəaliyyəti geniş və çox-cəhətlidir. Bunların sırasında **oyun, əmək, uşaq bədii yaradıcılığı, ünsiyyət** və s.əsas yer tutur. Bu yaş dövründə uşağın həyatında psixi inkişafda hansı fəaliyyət növünün başlıca rol oynadığı, aparıcı fəaliyyət olması məsələsində psixoloqlar arasında vaxtilə fikir ayrılıqları mövcud idi. A.N.Leontyev, D.B.Elkonin və V.V.Davıdov bu yaş dövründə **oyunu**, M.İ.Lısina **ünsiyyəti,** M.S.Kaqan isə **uşaq bədii yaradıcılığını** aparıcı fəaliyyət hesab etmişlər. Müasir psixologiya elmi məktəbəqədər yaşda **oyunun aparıcı fəaliyyət növü olması faktını** qəbul edir. Fəaliyyətin uşaq növlərinin özünəməxsus psixoloji təbiəti vardır.

Görkəmli Ukrayna pedaqoqu V.A.Suxomlinski oyunun uşaqların həyatında güclü amil olduğunu təsdiq edirdi. «Oyunsuz dolğun, məzmunlu tam əqli inkişaf yoxdur və ola da bilməz. Oyun çox böyük işıqlı pəncərədir: həmin pəncərədən uşağın mənəvi aləminə ətraf aləmdən təsəvvürlərin, anlayışların həyatverici axını daxil olur. Oyun hər şeylə maraqlanmaq, biliyə səy göstərmək odunu yandıran qığılcımdır».

Məktəbəqədər yaşlı uşaqlarla məktəbliləri fərqləndirən amil yalnız yaş fərqi deyil, psixoloji planda onların həyatında yer tutan aparıcı fəaliyyət formalarıdır. Qeyd olunduğu kimi, miəktəbəqədər yaşda aparıcı, başlıca fəaliyyət forması oyun olduğu halda, məktəb yaşlı uşaqlar üçün bu fəaliyyət forması **təlimdən** ibarətdir. Adları çəkilən fəaliyyət formalarından hər birinin spesifik psixoloji məzmunu və tələblər sistemi vardır. Həmin tələblər sistemi müvafiq yaş dövründə uşağın psixi inkişafında, şəxsiyyət kimi təşəkkülündə, psixi proses, funksiya və xassələrə yiyələnməsində həlledici rol oynayır.

Məktəbəqədər yaş dövründə aparıcı fəaliyyət forması olan oyunun uşağın psixi inkişafına təsirinin əsaslandırması ciddi elmi- psixoloji problemdir. Oyun **mədəniyyət tarixi, etnoqrafiya, pedaqogika və**

**psixolojiya** elmlərinin tədqiqat predmetinə daxildir. Alman psixoloqu V.Ştern oyunu **«ciddi instinktin başlanğıcı»,** Avstriya psixoloqu K.Büler **«funksional məmnunluq mənbəyi»** hesab edirdi. Rus psixoloqu L.S.Vıqotski oyunu **«sosial təbiətə malik bir fəaliyyət»** adlandırırdı.

Oyun uşaqların yalnız sevimli məşğuliyyəti deyil, həm də onların həyatının təşkili formasıdır. Oyun fəaliyyəti uşağın inkişafında motivləşmənin əsasıdır. Rus psixoloqu D.B.Elkonin qeyd edirdi: ən başlıcası ondan ibarətdir ki, oyun prosesində motivlərin yeni psixoloji formaları meydana gəlir. Oyunda motivlərin bir-birini əvəz etməsi prosesi baş verir, **şüuraqədərki affektiv istəklər** şüur sərhəddində dayanan ümumiləşmiş formalı istəklərlə keçir. Oyunun uşağın əqli inkişafına, əqli qabiliyyətlərinin formalaşmasına təsiri olduqca böyükdür və müzmunca təhlil tələb edir. Uşaqlar bu fəaliyyət forması vasitəsilə yaşlıların həyatına daxil olur, onlar arasındakı qarşılıqlı münasibətləri öz həyatlarına köçürürlər. Burada ən ciddi təsir subyekti **oyunun süjeti,** onun **məzmunudur.** Bu məzmun nə qədər dərin və əhatəli olsa, o, uşaqların həyatında keyfiyyətcə daha böyük təəssürat yaradır. Belə oyunlar yaşlılar üçün səciyyəvi olan tipik situasiyaların modelləşdirilməsini təmin edir. Rus psixoloqu A.V. Zaporojets qeyd etmişdir ki, oyun məktəbəqədər yaşlını aktiv fəaliyyət üsulları ilə silahlandırır. Oyun prosesində uşaqlar yaşlıların həyatına aid sosial rolları öz üzərlərinə götürür, situasiyalara uyğun rəftar və davranış formaları seçirlər. Psixoloqların fikrincə, oyunda uşaqlarda **təfəkkürün simvolik funksiyası** təşəkkül tapır. Onlar real əşyaların əvəzedicilərini əldə edir, oyunun məzmununa uyğun əyani modellərdən istifadə edir, plan, sxem və çertyojlar qururlar. Beləliklə, oyun prosesində uşaqlar **gerçəkliyin oyun modelini** yaratmaqla öz aralarında sərbəst qarşılıqlı münasibətlər və birgəfəaliyyət əsasında birləşmiş olurlar.

Məktəbəqədər yaş dövründə uşaq oyunlarının çoxsaylı formaları arasında uşağın psixikasının inkişafına fəal təsir baxımdan **rollu- süjetli oyunların** rolunu xüsusi qeyd etmək lazımdır.

Bu xarakterli oyun zamanı uşaqlar bir-birləri ilə xüsusi təşəbbüskarlıq əsasında birləşirlər. Onlar oyunun süjetini özləri müəyyən edir, rolları bölüşdürür, oyun materiallarını paylayır və rolları ifa edirlər. Belə oyunlar zamanı ən ciddi məsələlərdən biri oyunun süjetinin ətraf mühitdən götürülməsi, maraqlı olması, xüsusi təəssürat yaratmasıdır.

Məktəbəqədər uşaqlıq illərində uşaq oyunları öz inkişafında əhəmiyyətli dəyişikliklərə məruz qalır və uzun inkişaf yolu keçir. Ən sadə oyun forması olan əşyavi- manipulyativ və simvolik oyunlardan qaydalı, rollu- süjetli oyunlaradək davam edən bu inkişaf uşaqların psixikasında yeni törəmə keyfiyyətlərin yaranmasına, onların şəxsiyyətinin baza əlamətlərinin təşəkkülünə əhəmiyyətli təsir göstərir. Oyun formalarının ardıcıl və davamlı şəkildə təkmilləşməsi nəticəsində uşağın inkişafı üçün zəruri olan yeni fəaliyyət növlərinin- **əmək və təlim fəaliyyətlərinin** elementar formaları meydana gəlir. Oyun, əmək və təlim olmaqla əsas fəaliyyət növlərinin qarşılıqlı olaraq növbələşməsi əsasında məktəbəqədər uşaqlıq illərini 3 əsas şərti mərhələlərə ayırmaq olar: **kiçik məktəbəqədər yaş** (3-4 yaş), **orta məktəbəqədər yaş** (4-5 yaş), **böyük məktəbəqədər yaş** (5-6 yaş). Məktəbə-qədər uşaqlığın belə konkret dövrlərə ayrılmasında məqsəd inkişafın daha kiçik mərhələlərində uşaqların psixikası və davranışında qabarıq nəzərə çarpan keyfiyyət dəyişikliklərini hesaba almaqdan ibarətdir.Oyun prosesində qaydaların ciddi surətdə nəzarətdə saxlanılması cəhdləri onlarda **liderliyə can atma** meylinin təzahürü kimi diqqəti cəlb edir, bu da ilk təşkilatçılıq bacarıq və vərdişlərinə yiyələnmədə əsas şərtlərdən biri kimi əhəmiyyətlidir.Məktəbəqədər yaşlı uşaqların psixi inkişafında mühüm yer tutan ən başlıca vasitələrdən biri **oyuncaqlardır.** Oyuncaq uşağın əyləncəsinə xidmət edən əşyavi vasitə, eyni zamanda

onun psixi inkişafının təsirli amilidir. Oyuncaq uşaqların yaş dövrlərindən, onların aparıcı fəaliyyət növlərindən asılı olaraq diqqətlə seçilməli, onların psixi inkişafının stimullaşdırıcı vasitəsi olmalıdır. Körpəlik dövründə oyuncaqlar uşaqların ətraf xarici aləmə bələdləşməsi vasitəsi rolunda çıxış edir. 2-3 aylığında uşaqlar yaşlıların, oynatdıqları oyuncaqlara maraq göstərir, onları izləyirlər. Uşaqlar əlvan, parlaq oyuncaqları seyr edir, onların çıxardığı səslərdən həzz alır, müsbət emosialar əldə edirlər. Körpəlik dövründə uşağın psixi inkişafında yaşlıların xüsusilə, ananın **istiqamətləndirici və təhrikedici fəaliyyəti** üstün əhəmiyyətə malikdir. Arıq 2-3 aylıq uşaqlarda yaşlıların köməyi ilə ilk manipulyativ hərəkətlər müşahidə olunmağa başlayır. Ana və ya ailənin digər üzvlərinin köməyi ilə körpə oyuncaqlar vasitəsilə oyuna və ünsiyyətə qoşulur.

Bu hərəkətlər uşaqda xaotik hərəkətlərdən fərqli olaraq məqsədyönlü hərəkətlərin koordinasiyasını yaradır, onu əyləndirir. Aylar keçdikcə uşağın oyuncaqlarla manipulyativ hərəkətləri daha da mürəkkəbləşir. 7-8 aylığında körpə müxtəlif oyuncaqlarla müvafiq manipul-yativ hərəkətlər etməyi öyrənmiş olur. Uşağın məqsədyönlü hərəkətlərinin və uğurlu cəhdlərinin yaşlılar tərəfindən rəğbətləndirilməsi müsbət emosional vəziyyət yaradır, onu fərəhləndirir.

9 aylığında uşaqlarda tədricən ünsiyyətin yeni forması- işarə ünsiyyəti yaranır. Ana uşağın qarşısına qoyduğu şəkilli kitabdakı müxtəlif heyvanları göstərməyi təklif etdlikdə o, fərəhlə ona tanış olan şəkili göstərir, verilən suallara uyğun olaraq həmin heyvanın bədən orqanlarına barmağını uzatmaqla cavab verir. Bu, uşaqlarda şəklin qavranılmasının əsasını qoymuş olur. Artıq bu dövrdə uşaqlara kağız və qələm vermək olar. Onlar bu əşyalarla oynamaqla tədricən kağız üzərində iz qoymağı, müxtəlif ştrixlər çəkməyi öyrənmiş olurlar. Qeyd olunan vasitələr uşağın sensor və əqli inkişafında böyük əhəmiyyətə malikdir.

Oyuncaqların seçilməsində uşaqların cinsi xüsusiyyətlərinin nəzərə alınması da ciddi amillərdən biridir. Uşağın seçdiyi oyuncaqlar onun hansı

fəaliyyət növünə marağının olması və **cinsi identifikasiyası** haqqında proqnozlar verməyə imkan yaradır.

Xüsusi təşkil edilmiş məşğələlər vasitəsilə onlar qələmi və fırçanı düzgün tutmağa, rəsmetmə üçün zəruri olan əl hərəkətlərinin koordinasiyasına uyğunlaşırlar. 4 yaşlı uşaqlar düzgün rəsmetmə bacarıqlarına malik olmasalar da, rəsmetmənin mahiyyətini anlayırlar. Onlar düzxətli və dairəvi formalı sadə əşyaları rəsmetməyə, onlara rəng və forma əlamətləri verməyə alışırlar. Böyük məktəbəqədər yaş dövründə uşaqlar rəsm məşğələləri vasitəsilə əsas rənglərin adlarını öyrənməklə yanaşı, onları fərqləndirməyi bacarır, rəng düyümüna sahib olurlar. Rəsm məşğələləri vasitəsilə böyük məktəbəqədər yaşlı uşaqlar **süjetli rəsmetmə bacarıqlarını** mənimsəyir, sadə hərəkətləri rəsmdə verməyi öyrənir, ilkin kompozisiya bacarıqları qazanırlar. Bağça yaşlı uşaqların həyat və fəaliyyətinin təşkilində **yanma üzrə məşğələlərin** xüsusi yeri vardır. Onların vasitəsilə uşaqlar gül və plastilindən istifadə etməklə müxtəlif fiqurlar düzəldirlər. Bu məşğələlər uşaqların **fantaziya və təxəyyülünü** inkişaf etdirir, texniki əməliyyat və bacarıqları formalaşdırır, əl və qol əzələlərini inkişaf etdirir. Böyük məktəbəqədər yaşlı uşaqlar yanma üzrə məşğələlərin gedişində süjetli və dekorativ yanma sahəsində praktik bacarıqları mənimsəyirlər. Bağça yaşlı uşaqların fəaliyyətində kəsmə və yapışdırma əməliyyatları ilə icra olunan applikasiya məşğələləri əsas yerlərdən birini tutur. Onun vasitəsilə uşaqlar müxtəlif əşyaların tərtibatını verməyi öyrənir, müxtəlif materiallardan istifadə etməklə, dekorativ və bədii formalar yaradırlar.

Məktəbəqədər yaşlı uşaqların fəaliyyətinin məzmununda və psixi inkişafında **quraşdırma üzrə məşğələlər də** xüsusi yer tutur. Onun məzmununda bədii və texniki quraşdırma üzrə əməliyyatlar diqqəti cəlb edir. Uşağın quraşdırma fəaliyyətinin məhsulları həm də oyun üçün faydalı vasitələrdir. Tikinti və təbii materiallardan, həmçinin kağız və kartondan

istifadə etməklə, bu məşğələlərdə fəaliyyətə cəlb edilən uşaqlar sadə texniki bacarıqlara yiyələnirlər. Bu məşğələlər uşaqların yaradıcı təxəyyülünü inkişaf etdirir, onlarda təşəbbüskarlıq, iradi səy kimi keyfiyyətləri formalaşdırır.

Uşağın fiziki inkişaf şkalasında 3 yaşdan 6 yaşadək davam edən məktəbəqədər yaş dövrü inkişafda məhsuldar bir mərhələ kimi nəzərdən keçirilir. Bu illər ərzində əldə edilən psixi xassə və keyfiyyətlər uşağın şəxsiyyət kimi təşəkkülündə və intellektual inkişafında olduqca əhəmiyyətlidir. Psixoloqlar məktəbəqədər dövrü uşağın şəxsiyyət kimi formalaşması baxımından üç mərhələyə ayırırlar. **Birinci mərhələ** 3-4 yaşları əhatə etməklə uşaqlarda **emosional özünütənzimetmənin möhkəmlənməsi** ilə xarakterizə olunur. 4-5 yaşları əhatə edən ikinci mərhələ **əxlaqi özünütənzimetmə,** sonuncu, 5-6 yaşları əhatə edən mərhələ isə uşaqda psixoloji baxımdan **işgüzar şəxsiyyət keyfiyyətlərinin formalaşması** adlanır.

Məktəbəqədər yaşda uşaqlar öz davranışlarına nəzarət etməyə nail olur, başqalarının onun davranışına verdiyi qiyməti anlayır. Müəyyən əxlaq normaları haqqında təsəvvürlərə malik olurlar.

V.S. Muxinaya görə, bu dövrdə uşağın şəxsiyyətinin mənəvi cəhətdən inkişafı davranış qaydaları və normaları haqqındakı bilikləri, əxlaqi vərdişləri onun özünün daxili mövqeyi, müsbət emosional münasibəti ilə müəyyən olunur. Bu münasibətlərin mənbəyində uşağın təlimi və tərbiyəsi ilə məşğul olan yaşlılar və yaşıdlar durur. Onların əxlaqi təcrübəsi yaşlılardan uşaqlara ötürülür, ünsiyyət prosesində bu normaların mənimsənilməsi baş verir. Uşağın müşahidəçilik və təqlidçilik qabiliyyəti, rəğbətləndirmə və cəzalandırma sistemi bu prosesdə təsirli vasitələr kimi xüsusilə əhəmiyyətlidir.

Uşağın şəxsiyyətinin inkişafında ünsiyyətin müstəsna rolu vardır. Məktəbəqədər dövrdə uşağın şəxsiyyətlərarası əlaqələrinin tarixini və

məzmununu bilməklə biz onun şəxsiyyət kimi formalaşmasının xüsusiyyətləri haqqında çox şey öyrənə bilərik. Ünsiyyət uşağın həyatında təlabat növlərindən biri kimi çox erkən dövrlərdən özünü biruzə verir. Onun ilk təzahürləri uşağın özünü və başqalarını tanımasında və qiymətləndirmədə aşkara çıxır. Məktəbəqədər dövrdə, o cümlədən körpəlik və ilk uşaqlıq dövründə uşağın şəxsiyyət yönümdə inkişafında və formalaşmasında baş rolun ifaçısı anadır. Onun uşaqla ünsiyyətinin xarakteri bu və ya digər şəxsiyyət keyfiyyətlərinin, davranış formalarının meydana gəlməsini şərtləndirir. Bu dövrdə uşağın ana tərəfindən təriflənməsi və bəyənilməsi onun davranışının əsas stimullarından biri olur. Uşağın yaxın sosial əhatəsindəki doğma adamların qiymətləndirici mühakimələri də faydalı amil hesab olunur. Uşağın ailədə ilk dövrlər mənimsədiyi davranış normaları içərisində **məişət- gigiyenik** normalar, habelə **gün rejimi ilə bağlı tələblər,** əşyalar və heyvanlara qarşı münasibətlə bağlı davranış formaları üstün yer tutur. Adamlarla davranışda, onlara müraciətdə əxlaq normaları artıq məktəbəqədər yaşın sonunda müşahidə olunmağa başlayır. Onların uşaqlar tərəfindən anlaşılması xeyli çətin olsa da, böyük məktəbəqədər yaşlı uşaqlar rollu-süjetli oyunlar zamanı oyun qaydalarını mənimsəməklə onlara yiyələnmiş olurlar. Müşahidələr vasitəsilə uşaqlarda əxlaq qaydaları haqqında ilk təsəvvürlər yaranır və onlar tədricən davranış normalarına çevrilir.

Məktəbəqədər dövrdə uşaqların davranışı **intellektual özünütənzimetmə** çərçivəsindən çıxaraq sosial davranış və hərəkətlərin idarəsi müstəvisinə keçir. İntellektual özünütənzimetmə şəxsiyyət və mənəvi özünütənzimetmə forması alır. Davranışın mənəvi normaları tədricən uşaqlarda adət şəkli almış hərəkətlərə çevrilir, davamlı xarakter alır və öz situativliyini itirir. Məktəbəqədər uşaqlığın sonunda uşaqların əksəriyyətində müəyyən **əxlaqi mövqe** formalaşır, bu və ya digər dərəcədə özünün ardıcıl xarakteri ilə seçilir. Bu dövrdə uşaqların gələcək şəxsi taleyində əhəmiyyətli rol oynayan bir sıra davamlı və faydalı keyfiyyətlər

kompleksi meydana gəlir. Bu uşağın ətrafdakı adamlar tərəfindən tanınmağa və bəyənilməyə cəhd etməsindən ibarətdir. Bu zəmində, normal tərbiyə şəraitində uşaqlarda uğur qazanmağa tələbat, məqsədəyönəmlilik, özünə inam hissi, müstəqillik və s. kimi bir çox keyfiyyətlər yaranmış olur.

Böyük məktəbəqədər yaşda uşaqlarda ətraf adamlarla əlaqələrə yönəlmiş ünsiyyət motivləri dərinləşir. Uşağın hər şeyi bilmək istəyi kimi özünü göstərən təbii xüsusiyyətləri vasitəsilə onlarda ünsiyyətin yeni motivləri- işgüzarlıq və şəxsi fəallıq kimi keyfiyyətləri müşahidə olunur. Onların vasitəsilə uşaq hər hansı məsələnin həllində çətinlik çəkərkən yaşlılara müraciət edir, öz hərəkətlərinin yaşlılar tərəfindən qiymətləndirilməsini istəyir.

Böyük məktəbəqədər yaşın sonlarına doğru uşaqların əksəriyyətində **təlimə daxili, şəxsi-iradi hazırlığın** ilkin əlamətləri müşahidə olunur ki, bu da uşağın məktəb təliminə ümumi psixoloji hazırlığının zəruri tərkib hissəsi kimi nəzərdən keçirilə bilər.

Məktəbəqədər yaşlı uşaqların çoxu fəaliyyət prosesində öz uğuru və ya uğursuzluğuna emosional reaksiya göstərir, nəticədən asılı olaraq müsbət və ya mənfi hisslər keçirilər. Uşaq fəaliyyətinin nəticəsi olan uğuruna sadəcə olaraq sevinmir, həm də özünəməxsus tərzdə iftixar hissi keçirir, öz şəxsi ləyaqətini nümayiş etdirməyə çalışır. Lakin elementar özünüqiymətləndirmə reaksiyaları çox nadir hallarda müşahidə olunur. Psixoloqların fikrincə, 3,5 yaşlı uşaqlarda emosional reaksiyalar kütləvi xarakterli olduğu halda, 4 yaşlı uşaqlar öz imkanlarını daha real qiymətləndirmək bacarıqlarına malik olurlar. Məktəbəqədər yaşın sonlarına doğru uşaqlarda öz bacarıq və qabiliyyətləri haqqında təsəvvürlər meydana gəlir. Onlar şəxsi uğur və uğursuzluğun qabiliyyətlərdən asılılığını müəyyən səviyyədə dərk edir, bu qənaəti eyni bir işi başqaları ilə müqayisədə hansı səviyyədə yerinə yetirdiklərini müşahidə etməklə əldə edirlər. Müəyyən edilmişdir ki, 4,5 yaşlı uşaqlarda özünəinam hissi çox güclü olur və onlarda **adekvat iddia səviyyəsi** hələ formalaşmamışdır.

Onlar çox vaxt gücləri çatmayan işlərə əl atır, bu işin öhdəsindən gələ biləcəklərinə inamlı olurlar.

5-6 yaşlarında uşaqların psixoloji simasında , davranışın emosional-motivləşmə baxımından tənzimində diqqəti cəlb edən xüsusiyyətlərdən biri də **motivlərin qarşılıqlı tabeliyidir.** Uşaqlar təsadüfi istək və meyllərini ləngitməklə, onları əxlaqi cəhətdən daha yüksək əhəmiyyətli motivlərə tabe etməyə çalışırlar. Onlar keçmişdə daha kiçik olanda nələr baş verdiyini, gələcəkdə nələrin olacağını yaşlılardan xəbər alır, güclü, cəsur, xeyirxah və ağıllı adamların hərəkətlərinə rəğbət bəsləyirlər.

Məktəbəqədər uşaqlıq illərində insanın **şəxsiyyət keyiyyətlərinin baza əlamətləri** təşəkkül tapmağa, formalaşmağa başlayır, get-gedə möhkəmlənir, şəxsiyyətin davamlı fərdiyyətinin əsas əlamətlərinə- xarakterə çevrilir. Uşağın psixikasında şəxsiyyətyönümlü keyfiyyətlər kimi nəzərdən keçirilən emosionallıq və ünsiyyətlilik, dözümlülük və səbr, işgüzarlıq və qətiyyətlilik və s. keyfiyyətlər bir çox amillərin – genotin və mühitin, şüur və şüuraltının, operant və şərti reflektor öyrənmənin, təqlidin və s. təsiri altında yaranır və möhkəmlənir.

3-4 yaşlarından başlayaraq uşaq ona verilən tələb vasitəsilə, özünü başqaları ilə müqayisə etmək yolu ilə özünüqiymətləndirmə sisteminə yiyələnir, davranışın iradi tənzimi formalarına sahib olur. Bu, uşağın «daxili mövqeyinin»- ətraf aləmə, başqa adamlara və özünə qarşı münasibətinin kifayət qədər davamlı sisteminin formalaşdığının göstəricisi olub, olduqca dəyərli keyfiyyət kimi nəzərdən keçirilə bilər. Onun ilkin əlamətləri uşağın sonrakı ontogenetik inkişaf mərhələlərində davamlı və sabit psixoloji törəmələrin, şəxsiyyətə məxsus bir çox keyfiyyətlərin, ilk növbədə isə, müstəqillik, dözümlülük, məqsədəyönəlmişlik, təkidlilik, qətiyyətlilik və s. kimi iradi keyfiyyətlərin formalaşması və inkişafının çıxış nöqtəsi olur.

Psixoloqların fikrincə, 7 yaşında uşaqlar özlərini əsasən xarici əlamətlər baxımından səciyyələndirir və daxili aləmlərini davranışlarından fərqləndirə bilmirlər. Formalaşmış özünüdərketmə sayəsində uşaqlarda

özünü təhliletmə meyli yaranır. Bunun vasitəsilə uşaqlar onları əhatə edən mühitdə nələrin baş verdiyini, bu hadisələrin onlara nə dərəcədə aid olmasını anlamağa başlıyırlar. Bu dövrdə uşağın şəxsiyyətinin inkişafında diqqəti cəlb edən xüsusiyyətlərdən biri də ətrafdakı adamların, xüsusilə **yaşlıların və yaşıdların təqlid edilməsidir.** Müəyyən edlmişdir ki, məktəbəqədər yaş dövrü **təqlidçilik yolu ilə şəxsiyyətin inkişafı üçün senzitiv yaş dövrü** kimi nəzərdən keçirilə bilər. Məktəbəqədər dövrdə uşaqların təqlidçiliyi mənəvi- etik selektivliyə (seçiciliyə) malik olmadığı üçün, onlar yalnız müsbət deyil, həm də **mənfi davranış nümunələrini** asanlıqla mənimsəyirlər. Bu da uşaqlıq illərində pis vərdişlərin mənfi adət şəkli almış hərəkətlərin meydana çıxmasına səbəb olur.

3-4 yaşlarından başlayaraq uşaqlarda yaşlılarn davranışını müşahidə etmək, onların nümunəsi və təsiri nəticəsində xarakterin ilkin və davamlı əlamətləri formalaşmağa başlayır. Bu prosesdə uşağın ilk tərbiyəçiləri olan valideynlərin rolu xüsusilə böyükdür. Uşaqlar üçün müsbət təqlid obyekti olan valideynlər, onların uşağa müsbət münasibəti onun psixikası və davranışına daha güclü təsir göstərir. Psixoloji tədqiqatlar vasitəsilə sübut olunmuşdur ki, 3-8 yaşlar dövründə uşaqlar valideynlərin təsirinə qarşı daha həssas və itaətkardır. Göstərilən yaş həddində oğlanlar və qızların yaşlıların təsirinə həssaslığında fərqlərin mövcudluğu da müəyyən edilmişdir. Belə ki, qızlarda valideynlərin təsirinə qarşı həssas münasibət daha tez başlayır və daha uzun müddət davam edir. Qızlar daha itaətkar və sözəbaxan olurlar. Oğlanlarda bu proses qızlardan fərqli olaraq iki il gec, yəni 5 yaşında başlanır və 7 yaşınadək davam edir.

Hisslərin psixoloji təbiətini öyrənməyə çalışan Ç.Darvin, Mak- Dauqell kimi alimlər bu emosional vəziyyəti sırf bioloji planda tədqiq etmiş və onları **«instinktlərin astar üzü»** adlandırmışlar. Onların fikrincə, **özünüqoruma instinkti qorxu hissində**, **çoxalma instinkti isə məhəbbət hissində** ifadə olunur. Bütün emosiyalar orqanizmin bioloji təlabatlarının təmin edilib-

edilməməsindən asılı olaraq razılıq və ya narazılıq olmaqla iki başlıca reaksiyadan ibarətdir.

XX əsrdə hisslərin psixoloji mahiyyətini öyrənən Qərb alimlərindən D.Blets, C.Meyli, L.Cons, T.İmre və b. belə hesab edirdilər ki, bütün primitiv insanlar, o cümlədən uşaqlar yalnız sadə, üzvi tələbatların doğurduğu hissləri yaşamağa qadirdirlər. Tərbiyənin təsiri altında uşağın hissləri və tələbatları sosiallaşır, lakin uşağın təbii, anadangəlmə hissləri heç də yox olub getmir.

Uşaqlarda hisslərin inkişaf xüsusiyyətlərini, onların təbiətini elmi cəhətdən öyrənmək təşəbbüsləri XIX əsrdən başlayır. Bu sahədə tədqiqatlar aparmış Qərb alimlərindən K.Büllerə, E. Boduin, V.Ştern, C.Syolli və b. təbii hadisələrə faciəvi məzmun verməyə cəhd göstərərək, elə hesab edirdilər ki, uşağın ilk çığırtısı onun dünyaya gəlişi faktına qarşı ilk mənfi münasibətinin təzahürüdür.  Onlar belə hesab edirdilər ki, körpə isti və sakit ana bətni mühitindən səs-küylü, gurultulu dəhşətli dünyaya gəlməsinə qarşı öz etirazını və narazılığını çığırtı reaksiyası ilə bildirir. Həyatın birinci ilində uşağın əsas hissləri qəzəb, qorxu, müdafiəsizlik və s. kimi emosional reaksiyaların təzahüründən ibarətdir.

Rus psixoloqlarından A.Pavlova, E.Stançinskaya, N. Mençinskaya, N.Fiqurin, M.Denisova, N.Aksarina və b. körpəlik və ilk uşaqlıq dövründə uşaqlarda emosional vəziyyətlərin öyrənilməsi məqsədilə xüsusi tədqiqatlar aparmış və bir sıra konkret nəticələrə gəlmişlər.

Sadə üzvi hissləri uşaq öz həyatının ilk günlərindən başlayaraq keçirir. Bunlar əsasən mənfi hisslərdən ibarətdir. Onlar körpədə xarici və daxili mühitin xoşagəlməz təsirlərinə qarşı ağlamaq, çığırtı şəklində təzahür edir. Bu reaksiyaların yaranması otaqda havanın və ya vannada suyun temperaturunun aşağı düşməsi, boş mədənin sıxılması, bağırsaqların dolması və s. kimi səbəblərlə bağlıdır. Rejimin azacıq pozulması, yeməyin gecikməsi valideynlər və ya tərbiyəçinin uşağa qarşı qeyri-adi kəskin səsli müraciəti uşaqda coşğun emosional reaksiyanın yaranmasına səbəb olur.

Hətta orta və böyük məktəbəqədər yaşlı uşaqlar üçün adət edilmiş davranışın məhdudlaşdırılması onlarda emosional təsirlər doğurur. Məsələn, hər hansı şənlikdən sonra və ya onu gözləmə ərəfəsində uşaqlar şıltaqlaşır, yeməkdən imtina edir, ağlayırlar. Lakin uşaqların sinir sisteminin ümumi labilliyi nəticəsində onların hissləri davamlı olmur, tez keçib gedir.

Artıq iki aylıq uşaqda bəzi hisslər şərti reflektor xarakter daşıyır. Ananın ağlayan uşağa doğru yaxınlaşması, süd ilə dolu tanış butulkanın uşağın gözü önünə gətirilməsi üç-dörd aylıq uşaqda aydın ifadəli məsbət emosional reaksiya doğurur. Dörd-beş aylıq uşaq ümumi canlanma kompleksinə qoşulur, ona qulluq edən yaşlının səsinə və təbəssümünə adekvat reaksiya göstərir. Həyatın birinci yarısında bu reaksiya o qədər də diferensiallaşmış olmur. Ona görə də, uşaq doğmalarla yad adamları o qədər də fərqləndirə bilmir və hamısına eyni dərəcədə müsbət emosional münasibət göstərir. Bir yaşın sonunda uşağın ətraf xarici aləmlə münasibətləri dəyişir və seçici xarakter daşımağa başlayır. Doqquz-on aylıq körpə fərəhlə anaya tərəf iməkləyir, ananın yanında olmasından ifadəli məmnunluq hissi keçirir. Yanında yad adamın görünməsini o, təəccüb hissi ilə qarşılayır, kənar adamın ona yaxınlaşmasına və qucağına götürməsinə qarşı başın və əllərin müdafiə hərəkətləri və ucadan ağlamaqla cavab verir. Rus psixoloqu E.Q.Babinovanın tədqiqatları müəyyən etmişdir ki, həyatın birinci ilində uşaqlarda qeydə alınmış emosional təzahürlərin 72%-i yaşlılarla ünsiyyət fəaliyyəti ilə bağlıdır. Onların böyük əksəriyyəti, yəni 80%-i müsbət emosiyalardan ibarətdir. Bir yaşın sonunda uşaqların hissləri məzmunca çoxcəhətli olur. Məsələn, ana uşağın yanında olmadıqda o ağlayır, sızıldayır. Ana onun çarpayısı yanında oturub öz işi ilə məşğul olduqda və körpəyə baxmadıqda o, narazılıq ifadə edən səslər çıxarır, ananın diqqətini özünə yönəltmək istəyir, alnını ovuşdurur, qaş-qabağını tökür, əli ilə çarpayını döyəcləyir. An a ona tərəf döndükdə gülümsəməyə başlayır, qəzəb reaksiyası yox olur. Müəyyən edilmişdir ki, bir yaşın sonuna doğru uşaqlarda manipulyativ hərəkətlərin meydana

çıxması ilə əlaqədar onların oyuncaqlara marağı artır. Al-əlvan, parlaq oyuncaqlar uşaqlarda fərəh hissi doğurur. Lakin bu hisslər davamsız və qısamüddətli olur.

Uşaqlarda ən güclü müsbət emosional reaksiyalar **oyun və yaşlılarla zarafatlar zamanı** müşahidə olunur. Məsələn, yaşlı adam çarpayının arxasında gizləndikdə, oyuncağı gizlətdikdə və nəhayət uşaq onları taparkən yaşlı əl çaldıqda və ya uşaqla top oynadıqda hər bir uşaqda aydın ifadəli müsbət emosiyaları müşahidə etmək mümkündür. Bir-iki yaşlı uşaqlarda it-pişikdən qorxma halları olmur. Belə ki, onlar əllərini lap yaxınlıqda olan itə tərəf uzadır və ya pişiyin quyruğundan tuturlar. Onlar bu heyvanların xüsusiyyətlərini bilmədiklərinə görə qorxu hissindən də uzaq olurlar. Uşağın belə hərəkətlərinə qarşı heyvan əks reaksiya göstərdikdə-mırıldadıqda və ya uşağı cırmaqladıqda o, qorxur və bir daha həmin heyvana yaxınlaşmır. Uşaqlarda **qorxu hissi** şəxsi təcrübə nəticəsində meydana çıxır. Psixoloqların fikrincə, məktəbəqədər yaşlı uşaqlar daha çox **qaranlıqdan, həkimdən və iynədən haray-qışqırıqdan, təklikdən, şimşək çaxmasından, tanış adamın sifətinin kəskin dəyişməsindən** və s. daha çox qorxurlar. Düzgün olmayan tərbiyə, böyüklərin uşaqları tez-tez qorxutması onlarda qorxu hissi doğurur. Böyüklərin qorxulu söhbətləri, qorxulu hekayə və nağıllar, dəhşətli filmlər də uşaqlarda qorxu hissinin əsas mənbəyidir. Bəzən nadinc, sözə baxmayan uşaqları böyüklər intizama dəvət etmək üçün onları qorxutmaq üsulundan istifadə edirlər. Uşaq psixolojiyasını bilməyən bir çox yaşlılar uşağa «tez bura gəl, yoxsa, dayı səni torbaya salar», «Bura gəl, yoxsa səni oğurlayarlar» və s. tipli sözlərlə müraciət edir və ya uşağın qorxmasından həzz alaraq tez-tez onları qorxudurlar.

İlk uşaqlıq və məktəbəqədər yaş dövründə uşağın həyatının bütün sahələrində özünün rəngarəngliyi və zənginliyi baxımından hisslərin aydın təzahürləri müşahidə olunur. Kiçik yaşlı uşaqlar öz daxili yaşantılarını idarə edə bilmədiklərinə görə, həmişə hisslərin hakim təsiri altında olurlar.

Məsələn, dörd yaşlı uşaq hər hansı bir işi görərkən məqsədinə nail ola bilmədikdə ağlamağa başlayır. Rus psixoloqu N.N.Lodigina- Kots öz oğlu Rudolf üzərində apardığı müşahidələr əsasında qeyd etmişdir ki, Rudi çəkiclə mıxı döşəməyə vurarkən iş alınmadıqda öz-özünə deyinir və ağlayırdı.

Uşağın hisslərinin xarici təzahürləri yaşlı adamlara nəzərən daha coşğun, ardıcıl və qeyri-ixtiyari olur. Bu dövrdə uşaqlarda hisslər tez yaranır və tez də sönür. Məsələn, ağlayan 4 yaşlı uşağa maraqlı bir oyuncaq hədiyyə verdikdə, o gülməyə, sevinməyə başlayır və ağlamasını kəsir. Məktəbəqədər yaşlı uşaqların hisslər aləmində diqqəti cəlb edən cəhət tərif və məhəbbətə tələbatın olmasıdır. Böyüklərin xoş rəftarı və tərifi uşaqlarda emosional **məmnunluq, inam və himayə hissləri** doğurur və onlar özlərini arxalı hiss edirlər. Bu isə uşağa gümrah və həyatsevər əhvali- ruhiyyə bəxş edir. Qeyd olunan amillər uşağın normal psixi inkişafının, onlarda müsbət xarakter əlamətlərinin, əxlaqi keyfiyyətlərin, başqa adamlara qarşı xeyirxah münasibətlərin formalaşmasının əsasını təşkil edir.

Uşaq tərif, nəvaziş, səmimiyyət kimi münasibətlərə müsbət, danlaq, məzəmmət kimi təsirlərə qarşı mənfi emosional reaksiya göstərir. Məktəbəqədər yaş dövründə uşaqlarda özünüqiymətləndirmənin ayrı-ayrı təzahürləri meydana gəlir ki, bu da fəaliyyətin nəticəsindən asılı olur. Uşaq əldə etdiyi uğurdan sadəcə olaraq sevinmir, həm də özünəməxsus formada iftixar hissi keçirir. Psixoloji tədqiqatlar nəticəsində sübut olunmuşdur ki, artıq 3 yaşlı uşaq öz şəxsi imkanları haqqında müəyyən təsəvvürlərə malikdir. Lakin bu dövrdə uşaqlar faktlar və hadisələr arasındakı səbəb-nəticə əlaqələrini, hər bir hadisənin baş verməsinin müəyyən qarşılıqlı münasibətlərdən asılılığını dərk edə bilmirlər.

Məktəbəqədər yaş dövründə uşaqlar öz hərəkətlərinə görə yaşlılar tərəfindən verilən qiymətdən asılı olurlar. Ona görə də, uşaqlar daim böyüklərin tərif və rəğbətini qazanmağa çalışırlar. Məktəbəqədər uşaqlıq illəri hisslərin və təəssüratralın zənginliyi ilə fərqlənir. Bu dövrdə hisslərin

məzmununda nəzərə çarpacaq dəyişikliklər baş verdiyi kimi onların cərəyanetməsində də yeniliklər müşahidə olunur. Uşaqlığın ilk dövrlərində meydana gələn hisslər (yaşlılarla ünsiyyətdən fərəhlənmək, başqa uşaqların halına acımaq və s.) məktəbəqədər yaş dövründə daha da möhkəmlənir, daha da davamlı, aydın ifadəli olur. Məktəbəqədər **yaşda uşaqlarda meydana gələn rəğbət hissi get-gedə möhkəmlənir, yoldaşlıq və dostluq hisslərinin** ilkin formalarına çevrilir. Bu yaş dövründə uşaqlarda ali hisslərin formalarından biri olan **intellektual hisslər** inkişaf etməyə başlayır. Onlar nağıl və hekayələri dinləməyi xoşlayır, nağıl qəhrəmanlarının düşdüyü çətin vəziyyətə görə onların halına acıyır, baş verən hadisələrə maraq göstərirlər. Məsələn, 5 yaşlı uşaqlar «Şəngül, Şüngül və Məngül,» nağılını həyəcanla dinləyir, keçinin balalarını yediyinə görə canavara nifrət bəsləyir, çəpişlərin halına acıyırlar. «Pişik və qaraquş» hekayəsini dinləyən 5 yaşlı qız pişiyin körpə balalarını müdafiə etmək üçün onların şəkli təsvir olunmuş vərəqdə pişik balalarının üstünü əlləri ilə örtürdü. Uşaqlarda idraki hisslərin yeni obyektləri sırasında heyvanlar və quşlar özünəməxsus yer tutur. Bu hisslərin təzahürlərini oyun zamanı uşaqların müxtəlif heyvan və quş oyuncaqlarına münasibətindən də görmək mümkündür.

Məktəbəqədər yaşlı uşaqlar balaca, zəif quş və heyvan balalarına qarşı xüsusi qayğı və məhəbbət göstərirlər. Uşaqların zəngin intellektual hisslərini onların maraq və heyranlıq dolu baxışları ilə yaşlılara verdikləri suallardan da görmək olar. Uşaqların sosial əhatəsinin genişlənməsi, xüsusi uşaq bağçalarında onların yeni münasibətlər mühitinin yaranması zəminində çoxlu yeni hisslər meydana gəlir. Burada uşaqlar arasında kollektivçilik münasitbətlərinin ilkin formaları təşəkkül tapmağa başlayır. Bağça yaşlı uşaq qruplarında yaranan birgə fəaliyyətə, **dosta və yoldaşa tələbat hissləri** yüksək insani hisslərin formalaşmasının əsasını qoyur. Bağça yaşlı uşaqlar dostu üçün darıxır, öz oyuncaqlarını ona oynamağa

verir, şirniyyata qonaq edir, incidilmiş dostuna tərəfdar çıxır və onu müdafiə edirlər.

Uşaqlarda bu cür qarşılıqlı münasibətlər fonunda ali hisslərin formalarından biri kimi **əxlaqi hisslər** sırasında **borc, həya, özünə qarşı tələbkarlıq,** ümumi müvəffəqiyyətə görə **sevinc, düzlük** və **doğruculuq** və s. kimi hisslərin adını qeyd etmək olar. Əlbəttə, məktəbəqədər yaş dövründə uşaqların əxlaqi hisslərinin mükəmməl və davamlı xarakterdə olmasında danışmaq doğru olmazdı. Belə sosial məzmunlu hisslər uşaqların bilik səviyyəsi ilə bağlı olduğundan onlar yalnız məktəb yaşı dövründə tam formalaşır və davamlı şəkil alır.

Məktəbəqədər yaşlı uşaqların həyatında ali hisslərin formalarından biri olan **estetik hisslərin** təzahürlərini müşahidə etmək mümkündür. Bu hisslərin ilkin bazasında ətraf xarici aləmdən, təbiətdən və bədii ədəbiyyatlardan, incəsənət əsərlərindən götürülmüş estetik materiallar, musiqi, rəqs, kölgə teatrı faydalı vasitələrdir. Bu, uşaqlarda **gözəllik, estetik həyacan, heyrət** və s. kimi estetik hisslər doğurur, onlarda bədii qavrayışın inkişafını təmin etmiş olur. Məktəbəqədər yaşlı uşaqlarda müsbət əxlaqi hisslərlə yanaşı tez-tez müşahidə olunan affektiv vəziyyətlərdən doğan, bəzən isə səbəbsiz törəyən mənfi hisslərin də olduğunu qeyd etmək lazımdır. Məsələn, ana uşağa onun istədiyi paltarı geydirmədikdə o, acı göz yaşları axıdır, qışqırır, ayaqlarını yerə döyür. Belə kəskin reaksiyalar eynilə uşağa onun arzu etdiyi paltar və ya oyuncaq qəflətən göstərildikdə də, o eyni dərəcədə güclü affekt halı keçirir. Məktəbəqədər yaşlı uşaqlarda **xudbinlik, şıltaqlıq, xəbərçilik, küsəyənlik və inciklik** və s. kimi neqativ hallar da tez-tez müşahidə olunur. Onlar tez-tez heç nəyin üçtündə küsür, «nə üçün mənimlə danışmırsan?»- deyə soruşduqda «mən səndən küsmüşəm» deyə səmimi etiraf edirlər. Məktəbəqədər yaşlı uşaqlar tez-tez yoldaşlarının adi hərəkətlərilə çox yüksək qiymət verir, qaçıb valideynlərə və ya tərbiyəçiyə xəbərçilik edirlər.

Məsələn, «Arif adlı 5,6 yaşlı oğlan tərbiyəçiyə həyəcanla deyirdi ki, Vüqar əlini həyətdəki güllərə vurdun. Ərköyün tərbiyə olunmuş uşaqlarda **uşaq neqativizmi** adlanan tərslik və höcətlik kimi mənfi davranış halları da tez-tez müşahidə olunur. Sanki onlar yaşlıları incitməkdən, qadağan edilmiş hərəkəti etməkdən həzz alırlar. Bu yaş dövründə uşaqlarda müşahidə olunan mənfi əxlaqi hisslərdən biri də **paxıllıq hissidir.** Daim qayğıya möhtac olan uşaq ailədə həmişə birinci yerdə olmağa can atır. Hər şeyin təzəsi və böyüyünün, ən yaxşısının, qırmızı rənglisinin onun olmasını istəyir. Kiçik və ya xəstə bacı və qardaşa qarşı valideynlərin xüsusi qayğı və nəvazişi adətən məktəbəqədər yaşlı uşaqlarda aydın təzahürlü inciklik və paxıllıq hissləri doğurur. Rus psixoloqu V.S.Muxinanın gündəliyindən götürdüyümüz aşağıdakı nümunədə bunu aşkar görmək mümkündür.

«Kirill 4 yaş 2 ay, 15 günlükdür. Kitab oxuyuram. Şəkilləri əvvəlcə Kirilə, sonra isə Andreyə göstərirəm (o, xəstədir,çarpayıda yatıb). Bir qədər sonra Kirill ehmalca mənim qolumu dümsükləyir.- Kirill, eləmə!- deyə mən dillənirəm.

- Nə üçün o çox baxır?- deyə o soruşur.- O ki, xəstədir. Mən onun üçün oxuyuram. Sən qulaq asmaq istəmirsənsə, get oyna- deyib onu sakitləşdirmək istəyirəm. O, «mən sizin kitabınızı əlinizdən alacağam» deyə söylənir.

Uşaqların valideynlərinə qarşı məhəbbət hissi qarşılıqlı olaraq valideynlərin də onlara yönəlmiş sevgisi və məhəbbəti ilə, müsbət emosional münasibətləri ilə müşayət olunur. Uşağın hədsiz əzizlənməsi bəzən hətta **aqressiv fantaziyalar** yaradır. Bunu uşaqların «Mən səni daha istəmirəm». «Sən pis anasan». «Mən səni öldürürəm» tipli mülahizələrində öz əksini tapır.

Uşaqlarda müşahidə olunan hisslərin biri də **utancaqlıq hissidir.** Artıq 3-4 yaşlı uşaq öz **cinsi mənsubiyyətini anlayır,** oğlan və ya qız olduğunu bilir. Uşaqların fəallığı onların cinsi rollarını düzgün anlamasından

çox asılıdır. Uşağın cinsi rolunun fərqləndirilməsi ailədən başlanır. Məsələn, oğlan uşağı ağladıqda ona «Ağlama, sən qız deyilsən» və ya «Qız kimi küsəyən olma!»- deyə iradlar tuturlar. Eyni iradlar qızlara da yönəlir: «Sən qızsan, oğlan kimi hara gəldi dırmaşma! və s. «Oğlansan», «qızsan» və s. Кimi iradlar uşaqlarda qadın və kişinin nə isə keçilməz sərhədlərdə ayrılan fərdi adamlar olması, hansısa birinin digərinə nəzərən üstünlükləri, bir cinsin digəri üzərində hökmranlıq hüququ haqqında təsəvvürlərinin formalaşmasını sürətləndirir. Oğlanlar qızların, qızlar isə oğlanların mühitində, həmçinin qərib yerlərdə utancaqlıq hissi keçirirlər. Uşaqlarda utancaqlıq hissinin əsas səbəblərindən biri uşağın qapalı mühitdə və ya oğlanın əsasən qız mühitində böyüməsidir. Uşağın fiziki zəifliyi, keçirdiyi mənəvi sarsıntı da utancaqlıq hissi kimi görünə bilər. Lap erkən yaşlardan etibarən uşağın yaşlılar və yaşıdları ilə ünsiyyətdə olması kollektiv münasibətlər mühitində yaşaması onlarda utancaqlıq hissinin aradan qalxmasına əlverişli zəmin yaradır. Ailədə uşağın fəallığının artırılması, təşəbbüskarlığının inkişafı üçün şəraitin yaradılması onların fəal və zirək olmasına, öz qüvvəsinə inamın yaranmasına gətirib çıxaran əsas şərtlərdir. Belə olduqda, uşaqda utancaqlıq yaradan, onu həyəcanlandıran səbəblər aradan qalxır, hər şey ona adət etdiyi kimi görünür.

Psixoloqlar belə hesab edir ki, xəbərdarlıq və izahat uşaqlarda **«psixoloji immunitet»** yaradır. Uşaq qabaqcadan onu nə gözlədiyini biləndə, məktəbdə dərslərin başlanması, ailədə baş verən dəyişikliklər təzə mənzildə, xəstəxanada olma, və s. onu daha az qorxudur. Bununla o, həm də gələcək üçün planların qurulması prosesinə cəlb edilmiş olur. Ailədə **yaxın adamın ölümü, təbii fəlakət** uşaqlarda həyəcanlı qorxu yaradır.

Stress uşaq həyatının qadağan olunmayan, bəzən isə zəruri hissəsidir. O, etibarlı süzgəc hesab olunur. Əyyaş valideynlər, alkoqol düşkünləri olan ata-ana uşağa ağır sarsıntı gətirir. Belələrinin dostları az olur, tez-tez dərs buraxır, risqdən qorxur və məyus görünür, xəcalət hissi ilə yaşayırlar.

Ailə ənənələri və gün rejimi uşağın emosional həyatının güclü amilidir. Uşaqlar yaşlıların onlara verdiyi mənfi və müsbət qiymətləri çox ciddi qəbul edirlər. N.Tusi hələ XII əsrdə yazırdı: «Uşaqlarda pis adətlərə, bəd əməllərə nifrət yaratmaq lazımdır. Uşaq inkişafının ilk anlarında çoxlu səhvlərə yol verər, qəbahətli iş görər, çox zaman yalançı, paxıl, oğru, xəbərçi, tərs və inadkar olar, füzulluq eləyər, dediyindən əl çəkməz, başqalarını da zərərli və xoşagəlməz iş tutmağa vadar edər, sonra isə tənbeh və tərbiyə yaşı keçər. Yaşlıların tərbiyəsi uşaqların əxlaqi düşüncə tərzinin formalaşmasında mühüm rol oynayır. Psixoloqların fikrincə, **«olmazlar»** mühitində böyüyən, hər addımda davranışı məhdudlaşdırılan uşaqlarda böyüklərə hörmət qorxu hissinin təsiri altında yaranır. Məktəbəqədər yaş dövrü uşağın həyatında **emosional yüksəliş və enişlərlə dolu dönüş dövrüdür**. Ailədə hədsiz əzizlənən qayğı və təhlükəsizlik hiss edən uşaqlar çöldə, küçədə yeni emosiya və sərgüzəştlərlə rastlaşdıqda onları «həzm edə» bilmir, çaşıb qalırlar. Sağlam rəqabət mühiti uşaqlarda mübarizlik, ciddi və sərt münasibət dözümlülük, çətinliklər isə səbrlilik kimi əxlaqi- iradi keyfiyyətlərin formalaşmasına təminat yaradır.

İnsanın həyatında fəaliyyətin məqsədyönlü təşkili forması kimi iradi hərəkətlərin müstəsna əhəmiyyəti vardır. İradə insanın şüurunun fəal tərəfidir. Ağıl və hisslərlə birlikdə o, çətin şəraitdə insanın fəaliyyəti və davranışını tənzim edir. Bir çox psixoloqlar (K.Levin, J.Piaje, V.Bendt, S.L.Rubinşteyn, A.N. Leontyev, L.İ. Bojoviç və b.) şəxsiyyətin motivləşmə-tələbat sferasını tədqiq edərək iradəni insanın fəallığının əsas şərti kimi göstərmişlər. İradə insanın dərk olunmuş məqsədinə tabe olan məqsədəyönəlmiş fəaliyyətin, məqsədin həyata kesirilməsi zamanı qarşıya çıxan çətinliklərin aradan qaldırılması zamanı təzahür edir. O, yaranmış situasiyanın qiymətləndirilməsi, qərar qəbulu kimi hallarda insanın ruhi və fiziki qüvvələrini səfərbər edir. İradənin tənzimləyici funksiyası xüsusi, şüurlu özünütənzimetmə priyomları vasitəsilə həyata keçirilir. İradənin istənilən təzahüründə onun üç əsas struktur komponenti əks olunur:

İlk uşaqlıq dövründə uşaqlarda formalaşan müxtəlif əşyalarla praktik fəaliyyət təcrübəsi onlarda öz qüvvəsinə inam, müstəqillik kimi hisslərin meydana gəlməsinə zəmin yaratmış olur. Özünün artan imkanlarını dərk edən uşaq öz qarşısına daha cəsarətli və rəngarəng məqsədlər qoyur. Əldə edilən hər bir uğur uşaqda qürur və iftixar hissi doğurur,öz qüvvəsinə inamı möhkəmləndirir. Bu inam onların «mən özüm», «mən edərəm», «mən istəyirəm» kimi sözlü mülahizələrində əks olunur. Yaşlıların hər hansı tapşırıqlarını yerinə yetirmək üçün (güllərin suvarılması, nənəyə kömək etmək və s.) uşaq öz istəklərindən onu həmin anda maraqlandıran işlərdən əl çəkməli olur. Belə halda uşaqda **motivlərin qarşılıqlı tabeliyi və mübarizəsi** meydana çıxır. Daha güclü motiv davranış və fəaliyyəti şərtləndirən amil rolunda çıxış edir.

Məktəbəqədər yaşlı uşaqlarda iradi hərəkətlərin möhkəmlənməsi və vərdişlərə çevrilməsi uşağın həyatının düzgün təşkilindən asılıdır. Tərbiyə şəraitindən asılı olaraq uşağın həyatında müxtəlif motivlər (ictimai əhəmiyyətli, eqoistik və s.) ön planda ola bilər. Bu yaş dövründə uşağın şəxsiyyətinin baza əlamətləri, onun fəaliyyəti, təşəkkül tapır, şəxsiyyətinin istiqamətinin əsas meylləri nəzərə çarpmağa başlayır. Formalaşmış motivlər uşağın niyyətli, ixtiyari davranışının əsasını təşkil edir. Bu yaş dövründə uşağın şəxsiyyətində təşəkkül tapmaqda olan özünüdərketmə ona öz hərəkətlərini qiymətləndirmək, bəzi istəkləri ləngitmək, daha mühüm, əsas vəzifənin, tapşırılan işin icrasını təmin etmək üçün imkanlarını səfərbərliyə almağa yönəldir. Belə situasiyalarda uşaq daha az əhəmiyyətli motivləri daha çox əhəmiyyətli motivlərə tabe etməli olur. Uşaqların həyatında oyun yalnız əsas, aparıcı fəaliyyət forması deyil, həm də onların gündəlik həyatının ayrılmaz bir hissəsidir. Oyun zamanı uşaq öz üzərinə götürdüyü rolları mümkün qədər layiqincə oynamağa, qüvvələrini maksimum səfərbərliyə almağa çalışır. Oyun fəaliyyəti vasitəsilə uşaqlar yaşlıların həyatına daxil olur, onların qarşılıqlı münasibətlərinə aid olan həyatı təqlid edirlər. Onlar oyunda yaşlılar üçün xarakterik olan situasiyaları

modelləşdirir. Rus psixoloqu A.V.Zaporojets qeyd edirdi ki, oyun məktəbəqədər yaşlını aktiv fəaliyyət üsulları ilə silahlandırır. Psixoloqlar belə hesab edirlər ki, oyunda uşaqlarda təfəkkürün simvolik funksiyası təşəkkül tapır. Oyun zamanı uşaqlar real əşyaların əvəzedicilərini tapır, onun məzmununa uyğun əyani modellərdən istifadə etməklə plan, sxem və çertyojlar tərtib edirlər.

Qeyd etmək lazımdır ki, **davranışın şüurlu tənzimi** ancaq məktəbəqədər yaş dövründən başlanır. Məktəbəqədər yaşın sonunda uşaqlarda iradi səy amilinin təzahürləri müşahidə olunur. Bu dövrdə uşağın davranış motivlərini dəyişmək ən çox kənar motivlərin sıxışdırılması, əsas motivə tabe edilməsi şəklində üzə çıxır. Məktəbəqədər yaş dövründə uşaqlarda iradənin inkişafında nəzərə çarpan üstün dəyişikliklərdən biri **məqsədə can atma meylidir.** Bu dövrdə uşaqlarda məqsədlə fəaliyyət arasında əlaqə təşəkkül tapır və fəaliyyətin məqsədəyönəlmiş təzahürləri müşahidə olunur.

Uşaq psixoloqları belə hesab edirlər ki, **ipoxoidriya** adlanan bəzi xəstəliklərin çoxu öz erkən başlanğıcını belə tərbiyə metodlarından götürür. Valideynlərin uşaqlara yönəlmiş «Gəl əllərini yu. Təmiz əllə yemək ləzzət verir», «Şadam ki, mənim oğlum təmizdir, yalnız pis uşaqlar süfrə arxasında çirkli əllərlə oturur» tipli müraciətləri uşaqda ətrafdakıların sevimlisi olmaq tələbatı yaradır və daha yaxşı səmərə verir.

Bağça tərbiyəçiləri çox vaxt valideynlərə irad tutaraq onların uşaqlarının ipə-sapa yatmaz, çox nadinc, söz eşitməyən olduğundan gileylənirlər. Doğrudan da, uşaqların həyatının üçüncü ilindən başlayaraq onların çoxunda «yox», «istəmirəm», «etməyəcəyəm» tipli inkari mülahizələri tez-tez eşitmək olur. Psixoloqlar uşağın bu cür davranışını neqativizm adlandırır və qeyd edirlər ki, hər bir uşaq inkişafında bu mərhələdən keçir. Bu, uşaqlarda 3 yaşın böhranı **«mən konsepsiyası»** nın yaranmasını əks etdirir. Uşaqlarda belə xüsusiyyətlərin olmamasını psixoloqlar şəxsiyyətin **«əlverişsiz tərbiyəsi sindromu»** hesab edilir.

Neqativizm tərslik və inadkarlığın yüksək səviyyəsidir. O, uşağın yaşlıların bütün tələblərinə qarşı qəti etirazında əks olunur. Məsələn, ananın «Get yat» tələbinə qarşı uşaq «Yatmayacağam», «Televizoru söndür» tələbinə qarşı onun səsini daha da qaldırmaqla əks cavab reaksiyası göstərir. Yaşlılar ciddiliyi və tələbkarlığı artırdıqca uşaq buna qarşı özünümüdafiə və müqaviməti artırmaqla cavab verir.

Rus psixoloqu A.P.Larin belə hesab edir ki, inadkarlıq **uşağın azadlığı və müstəqilliyinin kəskin surətdə məhdudlaşdırılması** nəticəsində yaranır və onun tam nəzarətsizliyə, özünümüdafiəyə meylinin təzahürü olaraq meydana çıxır. Yalnız öz istəyi ilə hərəkət etmək vərdişi uşaqlarda inadkarlığın inkişafına səbəb olur.

Uşağa qarşı tərbiyədə düzgün və optimal metod və vasitələrin seçilməsi, tələblərdə həssaslıq, münasibətlərdə və cəzada ölçü hissinin gözlənilməsi, hörmət və tələbkarlığın məharətlə uzlaşdırılması və s. kimi amillərin nəzərə alınması onlarda şıltaqlıq, tərslik, xudbinlik və neqativizm kimi mənfi iradi xüsusiyyətlərin məharətlə aradan qaldırılmasını təmin edə bilər. Məktəbəqədər uşaqlıq illərində nitqin inkişafı ana dilinin mənimsənilməsi prosesi intensiv şəkildə davam edir, daha fəal bir forma alır və uşaqların həyat tərzinin ayrılmaz bir hissəsinə çevrilir. Məşhur Amerikan psixoloqu C.Bruner uşağın nitqə yiyələnməsini onun vasitəsiz informasiya çərçivəsindən çıxması və ətraf aləm haqqında təsəvvürlərin yeni formasının qurulması vasitəsi hesab edirdi. Uşaqların artan müstəqillik imkanları onların hissi və praktik təcrübəsinin zənginləşməsinə, ünsiyyət dairəsinin genişlənməsinə gətirib çıxarır. Məktəbəqədər yaşlı uşaqlar erkən uşaqlıq dövründəki imkanları arxada qoyaraq daha fəal surətdə sosial imkanlara malik olurlar. Məhdud ailə münasibətləri çərçivəsindən kənara çıxmaq əsasında uşaqlar daha çox adamlarla, yaşlılar və yaşıdları ilə fəal ünsiyyətə qoşulurlar. Oyun, təlim xarakterli müxtəlif məşğələlər uşaqların nitqində ünsiyyətin müxtəlif formalarından istifadəyə geniş imkanlar açır. Nitqin inkişafı məktəbəqədər yaşlı uşaqlarda digər psixi proseslərin, xüsusilə

təfəkkürün inkişafına əlverişli zəmin yaradır. Nitq daha artıq dərəcədə uşaq üçün **təfəkkür alətinə,** onun savada yiyələnməsi vasitəsinə çevrilir. Uşaqlarda nitqi anlama qabiliyyəti sürətlə artdığına görə, onlar yaşlılardan hər gün yeni-yeni sözlər öyrənir, onların göstəriş və təlimatlarını yerinə yetirməyə qadir olurlar. Məşğələlər zamanı tərbiyəçinin verdiyi tapşırıqları dəqiq yerinə yetirmək üçün uşaqlar diqqətlə onun nitqini dinləyir və onu anlamağa səfərbər edilirlər. Nitq bu dövrdə uşağın fəaliyyətinin tərkib hissəsinə, müşahidə və rəsmetmənin, say və musiqi məşğələlərinin, savad təliminin və s. ayrılmaz amilinə çevrilir.

Erkən uşaqlıq dövrünün sonunda, üç yaşın tamamında uşaqlar müəyyən səviyyədə lüğət ehtiyatına malik olurlar. Bu dövrdə uşağın lüğət fondundakı sözlərin sayı **1200-1500** həddinə çatmış olur. Əgər iki yaşlı uşaqlar iki-üç sözlü cümlələr vasitəsilə danışırsa, dörd yaşında onlarda kifayət qədər sərbəst daqnışmaq, öz istəklərini, hisslərini, fikirlərini və mövqelərini bildirməyi sözlə ifadə etməyə imkan verən nitq vərdişləri inkişaf etməyə başlayır.Son illər alimlər arasında insanın nitq qabiliyyətinin anadangəlmə olub-olmadığı haqqında diskusiyalar kəskin şəkil almışdır.Bir qrup alimlər nitq qabiliyyətinin genetik baxımdan şərtləndiyi fikrini irəli sürsə də, insanın nitqinin anadangəlmə olmadığı haqqında bir çox inandırıcı dəlillərin olduğu artıq aydındır.

Yeni doğulmuş, heç vaxt insan səsi eşitməmiş və cəmiyyətdən təcrid edilmiş uşaqların nitq imkanlarından məhrum olduğu artıq danılmaz həqiqətdir. Belə uşaqları obrazlı olaraq R.Keplinqin eyni adlı romanındakı qəhrəmanın adı ilə **«Mauqli uşaqlar»** adlandırırlar.

XX əsrin əvvəllərində Hindistanda canavar sürüsündən tapılmış, sonralar Amalə və Kəmalə adlandırılmış iki qızın acı taleyi buna misal ola bilər. İnsan mühitinə gətirilmiş Amalə adlı kiçik qız bir ildən sonra öldü. Kəmalə adlanan böyük qıza səkkiz il ərzində çətinliklə cəmi 40 söz öyrətmək mümkün olmuşdu. Bu vaxt onun on yeddi yaşı vardı.

Vaxtilə Afrika meşələrində təxminən 10-12 yaşlı ağ dərili oğlan tutmuşdular. O, meymunlar arasında yaşayırdı, onların bütün hərəkətlərini mənimsəmişdi. Ona təlim vermək təşəbbüsləri baş tutmamışdı: o insan nitqini anlamır, hətta gülməyi də bacarmırdı.